www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21-22 aprel 2018-ci il Şənbə № 86 (6975) Qiymәti 60 qəpik

**Xəbər**

**Bakıda polis bölməsinin ərazisində üç ədəd top mərmisi tapıldı**

yazısı səh.2-də

**Gündəm**

### Prezident İlham Əliyev böyük struktur islahatlarına başladı



Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edildi; Gömrük Komitəsi və Vergilər Nazirliyi bir sıra idxal-ixrac əməliyyatlarına birgə nəzarət edəcək; Mədəniyyət və Turizm Nazirliyinin əsasında Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyi yaradıldı...

yazısı səh.2-də

### "Susduqlarım mənim kimliyimi susmayanlara isbat etdi" - Gülər Əhmədova

yazısı səh. 7 və 10-da

### Ermənistanda müxalifət birləşir, Azərbaycanda isə didişir...

yazısı səh.11-də

### Əhəd Abıyev Daşkəsəndə səyyar görüş keçirib

yazısı səh.2-də

### Zəifləyən erməni lobbisi və "ermənilərə işləyən" sözünün fəsadları...

yazısı səh.6-da

### Seçki öncəsi Türkiyədə vəziyyət gərginləşə bilər

yazısı səh.4-də

### Neftin rekord vuran qiyməti nə qədər davam edəcək...

yazısı səh.10-da

### ABŞ-ın Azərbaycandakı səfirliyinin passivliyinin səbəbi

yazısı səh.4-də

### Dünyada "ticarət müharibəsi" səngimir - uduzan kim olacaq...

yazısı səh.12-də

### Metronun elektrik deposunda qumbara tapıldı

yazısı səh.14-də

### Dostunu işgəncə ilə öldürən gəncdən tükürpədən açıqlamalar

yazısı səh.14-də

# ERMƏNİSTANDA MƏXMƏRİ İNQİLAB BAŞLAYIR - MÜXALİFƏTDƏN SƏRT QƏRAR

İrəvanda siyasi ehtiraslar güclənir; Qərbyönlü hərəkat rejimi inqilabla hədələdi; Serj Sərkisyanı ağır dilemma gözləyir; rusiyalı analitiklərdən erməniləri təlaşlandıran proqnoz və açıqlamalar...



yazısı səh.8-də

## Bu gün parlamentdə ölkənin yeni baş naziri təsdiqlənəcək

Nəzərlər ölkə prezidentinə dikilib; Artur Rasi-zadə yenidən postuna təsdiqlənəcək, yoxsa...

yazısı səh.3-də



*Fəzail Ağamalı:*

**"Andiçmə mərasimi çox vəsait tələb etməyən, çox sadə formada keçirildi"**

yazısı səh.3-də



**Elmar Məmmədyarov gedirmi, qalırmı...**

yazısı səh.5-də



*Tural Abbaslı:*

**"Bundan sonra iqtidar və müxalifət arasında normal, sivil dialoq mühitinin yaranması mümkündür"**

yazısı səh.6-da



# Prezident İlham Əliyev böyük struktur islahatlarına başladı

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edildi; Gömrük Komitəsi və Vergilər Nazirliyi bir sıra idxal-ixrac əməliyyatlarına birgə nəzarət edəcək; Mədəniyyət və Turizm Nazirliyinin əsasında Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyi yaradıldı...**

**Prezident İlham Əliyev ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. APA-nın xəbərinə görə, sərəncama əsasən maliyyə nəzarəti sahəsində uçotun şəffaflaşdırılması, büdcə yığımlarının artırılması, qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracın həcminin artırılması və bu istiqamətdə dövlətin fiskal siyasətini həyata keçirən orqanların fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi məqsədilə bir sıra idxal-ixrac əməliyyatları üzrə Dövlət Gömrük Komitəsi və Vergilər Nazirliyi tərəfindən birgə nəzarət mexanizminin tətbiqi məqsədəuyğun sayılıb.**

Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi və Dövlət Gömrük Komitəsi idxal-ixrac əməliyyatları üzrə birgə nəzarətlə əhatə olunacaq prosedurların siyahısına və mexanizminə dair təkliflərini bir ay müddətində prezidenti təqdim etməlidir.

Prezident habelə istehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti əsasında mərkəzi icra hakimiyyəti orqanı olan Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılıb. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti İqtisadiyyat Nazirliyinin tabeliyindən çıxarılıb.

Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılıb.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi isə ləğv edilib.

Ləğv edilmiş Komitənin texniki tənzimləmə, standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və keyfiyyətin idarə edilməsi sahəsində səlahiyyətləri Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə, sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində səlahiyyətləri isə Əqli Mülkiyyət Agentliyinə verilib. "Azərbaycan Metrologiya İnstitutu", "Azərbaycan Standartlaşdırma İnstitutu" və "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxslərin təsisçilərinin səlahiyyətlərini Dövlət Agentliyi həyata keçirəcək.

Prezident İlham ƏliyevMədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında da sərəncam imzalayıb.

APA-nın məlumatına görə, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi yaradılıb.

Nazirlər Kabinetinə tapşırılıb ki, Mədəniyyət Nazirliyinin və Dövlət Turizm Agentliyinin əsasnamələrinin layihələrini, strukturları və işçilərinin say həddi barədə təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

## Başsağlığı

**Novruz Həsənli, Rauf Arifoğlu, Kamil Tağısoy və Cahangir Cahangirov**
**Pərviz Rəhimova**
**anasının**
**vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir, mərhumun vəfatından kədərləndiklərini bildirirlər.**

# Prezident yeni metro qatarlarında yaradılan şəraitlə tanış oldu

**Azərbaycan prezidenti İlham Əliyev Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olub.**

APA-nın məlumatına görə, prezident İlham Əliyev Bakı Metropoliteninin "İçərişəhər" stansiyasında olub.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlət başçısına metronun konseptual inkişaf sxemi və yeni metro qatarları barədə məlumat verib.



Prezident İlham Əliyev yeni metro vaqonlarına baxıb.

Yeni qatarın sürəti saatda 90 kilometrdir. Qatarın baş vaqonu 38 oturacaqlı olmaqla, ümumilikdə 315 yerlik, orta vaqonu isə 44 oturacaqlı olmaqla, ümumilikdə 328 yerlikdir. Yeni vaqonların mühərriklərinin gücü 170 kilovatdır.

Qəza, sürüşmə, yanğın əleyhinə yeni sistemlərin tətbiqi qatarda hərəkət təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırıb. Vaqonlardakı sərnişinlərin təhlükəsizliyi daxili və xarici videomüşahidə sistemləri əsasında təmin edilir.

Prezident İlham Əliyev yeni qatarla metronun "İçərişəhər" stansiyasından "Nəriman Nərimanov" stansiyasına gedib.

Qatarda vaqonlararası birbaşa keçidin təmin edilməsi ilə onun konstruksiya tutumu sələfləri ilə müqayisədə 15 faiz çoxdur. Vaqonlararası keçidin olması bütün qatar boyunca sərnişinlərin bərabər paylanmasını, sərnişinlərin yerləşmə sahəsini genişləndirməklə onların rahat daşınmasını və təhlükəsizliyini təmin edir. Vaqonlarda mükəmməl istilik, salonda təzyiqin tənzimlənməsi və ultrabənövşəyi lampalarla havanın bioloji təmizlənməsi sistemləri mövcuddur.

Yeni konstruksiyalı səsboğucu ilə təmin edilmiş təkərlərdən istifadə olunduğu üçün qatarlar səssiz və rəvan hərəkət edir.

Dövləti başçısına metronun konseptual inkişaf sxemi barədə məlumat verilib.

# İkinci Dünya müharibəsi veteranlarına birdəfəlik maddi yardım veriləcək

**Azərbaycan prezidenti İlham Əliyev 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Sərəncamın icrası məqsədi ilə 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,9 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə həmin vəsaitin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etmək, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə isə birdəfəlik maddi yardımın bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etmək tapşırılıb.



# Bakıda qızları zorlayan falçı ilə bağlı araşdırma başladı

**Bakıda tələbə, yetkinlik yaşına yenicə çatmış qızları falçı tərəfindən təcavüzə məruz qalıblar. Bildirilir ki, qızları Yasamaldakı evə dəvət edən şəxs onlara bihuşedici maddə qatılmış çay, su verib. Qızlar yuxuya gedəndən sonra bakirəlikləri pozulub, bundan sonra onlar təhdid ediliblər.**

Baş vermiş iyrənc hadisə haqda hüquq-mühafizə orqanlarına, "Təmiz Dünya" İctimai Birliyinə məlumat verilib.

Hüquq-mühafizə orqanlarından oxu.az-a verilənə xəbərə görə, faktla bağlı artıq araşdırma başlayıb.

"İddialar öz əksini tapsa həmin şəxs cinayət məsuliyyətinə cəlb ediləcək. Məsələ ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır", - deyə Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi Ehsan Zahidov bildirib.

Qeyd edək ki, bu fakt üzrə zərərçəkən xanımlar "Yeni Müsavat"ın ötən sayında açıqlama vermişdilər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
**Telefon: (012) 434 93 01**

## Əhəd Abıyev Daşkəsəndə səyyar görüş keçirib

**Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev növbəti səyyar görüş keçirib. Bu haqda Daşkəsən RİH-dən musavat.com-a məlumat verilib.**

Məlumatda bildirilir ki, səyyar qəbulda rayonun hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatlarının rəhbərləri, qəsəbə ictimaiyyətinin nümayəndələri və ağsaqqallar iştirak edib. Tədbirdə icra nümayəndəsi Nizami İmanov çıxış edib. Görülən işlər haqda məlumat verib.





Qəbulda qəsəbə sakinlərindən də çıxış edənlər olub. Məmmədov Salman Nəsib oğlu, Bayramov Teymur Nəbi oğlu, Məhərrəmov Nəzərli Valeh oğlu ölkə rəhbərliyinə görülən işlərə görə minnətdarlıqlarını bildiriblər.

**Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev** respublikanın və rayonun inkişafından danışıb. RİH başçısı qeyd edib ki, ölkədə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün respublikanın hər bir bölgəsində, o cümlədən Daşkəsəndə geniş tikinti-abadlıq işləri aparılır - yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, uşaq bağçaları tikilir, sosial layihələr həyata keçirilir. O, bildirib ki, ölkə başçısı tərəfindən özəl sahəyə xüsusi diqqət yetirilir, yeni-yeni istehsal və emal müəssisələri yaradılır: "Görülən bütün bu işlər, həyata keçirilən tədbirlər sonda yalnız bir amala xidmət edir ki, bu da əhalimizin yaxşı yaşaması, insanlarımızın fəaliyyəti üçün iş yerlərinin yaradılması, onların sosial rifahının və həyat səviyyəsinin daha da yaxşılaşdırılmasıdır".

Görüş zamanı Əhəd Abıyev qəsəbə sakinlərinin problemlərini dinləyib, qaldırılan məsələlərin həll olunması üçün tapşırıqlar verib.

**❑ Musavat.com**

## Polis bölməsinin ərazisində üç ədəd top mərmisi tapıldı

**Aprelin 20-də saat 13:10-da Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Bakının Nərimanov rayonu, M.Nərimanov küçəsi 1 ünvanında mərminin tapılması barədə məlumat daxil olub.**

ANAMA-dan APA-ya verilən məlumata görə, Agentliyin xüsusi mobil çevik əməliyyat qrupu əraziyə göndərilib.

Rayonun 17-ci polis bölməsinin inzibati ərazisinə baxış keçirilib, üç ədəd boş top mərmisi (1 ədəd 100 mm-lik OF-412, 1 ədəd 122 mm-lik S-463 və 1 ədəd 122 mm-lik OF-530) aşkar olunub. Mərmilər götürülərək Agentliyin mərkəzi məhvetmə ərazisinə daşınıb.



Artur Rasi-zadə

# Bu gün ölkənin yeni baş naziri təsdiqlənəcək

## Nəzərlər ölkə prezidentinə dikilib; Artur Rasi-zadə yenidən postuna təsdiqlənəcək, yoxsa...

**Aprelin 21-də Milli Məclisin növbəti plenar iclası keçiriləcək. Qeyd edək ki, şənbə günü Milli Məclisin plenar iclasının keçirilməsi halına rast gəlinməyib. Ona görə də təcili iclasın çağırılması ortaya suallar çıxarır, nə baş verdi ki, qəfildən plenar iclas çağırıldı? Yeri gəlmişkən, əvvəlcədən elan olunmuşdu ki, Milli Məclisin növbəti plenar iclası aprelin 24-də keçiriləcək, hətta iclasın gündəliyi də açıqlanmışdı.**

**Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu** qəzetimizə açıqlamasında plenar iclasın keçiriləcəyini təsdiqləsə də, gündəlikdəki məsələ barədə məlumatsız olduğunu bildirdi: “Rəhbərlik bizə deyib ki, aprelin 21-i saat 12.00-da Milli Məclisin növbəti plenar iclası keçiriləcək. Gündəlikdə nə var, hələlik bununla bağlı məlumatımız yoxdur”. A.Təvəkküloğlu onu da bildirdi ki, 24 aprel iclası elan olunduğu kimi, baş tutacaq.

“Yeni Müsavat”ın aldığı məlumata görə isə plenar iclasın gündəliyində bir məsələ var: yeni baş nazirin namizədliyinin müzakirəsi və təsdiqlənməsi.

Qeyd edək ki, Azərbaycan Konstitusiyasının 109-cu maddəsinə görə, Baş nazirin namizədliyini prezident irəli sürür və həmin namizəd Milli Məclisə təqdim edilir.



Daha sonra prezident namizədliyini irəli sürdüyü şəxsi Milli Məclisin razılığı ilə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edir. Xatırladaq ki, aprelin 11-də keçirilmiş Prezident seçkilərinin nəticələrinə əsasən, prezidentliyə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən İlham Heydər oğlu Əliyev 86,02 % səs toplayaraq qalib gəlib. Aprelin 18-də İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimində and içərək vəzifəsinin icrasına başlayıb. Andiçmə bitəndən sonra Azərbaycan Nazirlər Kabineti istefaya gedib. Prezident İlham Əliyevin aprelin 18-də imzaladığı sərəncamla Nazirlər Kabinetinin yeni tərkibi formalaşdırılanadək Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərinin icra edilməsi Nazirlər Kabinetinin əvvəlki tərkibinə həvalə edilib.

Telefon əlaqəsi saxladığımız deputatlar da onlara iclasla bağlı bir neçə saat əvvəl məlumat verildiyini dedilər və bunun səbəbləri barədə məlumatsız olduqlarını bildirdilər. Adlarının açıqlanmasını istəməyən bəzi deputatlar bildirdilər ki, baş nazirliyə namizədliyi irəli sürüləcək şəxslə bağlı tam bilgisizdirlər.

**Deputat Fazil Mustafa** isə “Yeni Müsavat”a bildirdi ki, şənbə günü Milli Məclisin iclasının keçirilməsi yeni hadisədir. İclasla bağlı təxminlərini soruşduqda, deputat “əgər belə təcili iclas çağırılırsa, ola bilər yeni baş nazir təyin edilsin” deyə, bildirdi. F.Mustafa əlavə etdi ki, o, yeni prinsiplərin formalaşmasının tərəfdarıdır: “Komanda önəmli deyil, çünki komandaya nə tapşırıq verilsə, o istiqamətdə işləyəcək. Yeni, daha fərqli prinsiplərin ortaya çıxmasına ehtiyac var, o da vətəndaşların hüquq və azadlıqlarına daha sayğılı, daha həssas münasibət bəsləyən bir fəaliyyət olmalıdır, əsas odur. Yoxsa yaşlı kadrın gedib, cavanın gəlməsi hələ məsələnin həlli demək deyil. Yəni kadrın düşüncəsi, dünyagörüşü, müasir düşüncə tərzi önəmli şərtlərdən biridir, yaşı önəmli deyil. Ona görə də mən, açığı, ümid edirəm ki, yeni anlayışlı bir hökumətin formalaşmasına başlanılacaq”.

Qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizədlik haqqında təklifi Azərbaycan Respublikasının Prezidenti onun öz vəzifələrinin icrasına başladığı gündən bir ay və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefa verdiyi gündən iki həftə müddətindən gec olmayaraq Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edir. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizədlik haqqında qərarı həmin namizədliyin təqdim edildiyi gündən bir həftədən gec olmayaraq qəbul edir. Göstərilən qayda pozularsa və ya Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi namizədlərin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunmasına üç dəfə razılıq verilməzsə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Baş nazirini Azərbaycan Respublikası Milli Məclisinin razılığı olmadan təyin edə bilər.

Plenar iclasda yeni baş nazirin namizədliyinin müzakirəyə çıxarılacağı, yoxsa keçmiş baş nazir Artur Rasi-zadənin yenidən öz postuna təsdiqlənəcəyi barədə fərqli fikirlər var. Hətta Baş nazirin birinci müavini Yaqub Eyyubovla müavin, YAP icra katibi Əli Əhmədovun namizədliyi barədə də məlumat yayılıb. Odur ki, səlahiyyətlərini müvəqqəti icra edən Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli ilə əlaqə saxlayıb bəzi suallarımıza cavab almaq istədik.

“Bu, istisnasız olaraq cənab prezidentin səlahiyyətində olan məsələdir. Ona görə də məndə bu barədə informasiya yoxdur” - deyə, A.Əli bildirdi. O qeyd etdi ki, cənab prezidentin sərəncamı ilə hökumət yeni tərkib təsdiq olunana qədər öz səlahiyyətlərinin icrasını davam etdirir. A.Əli Baş nazir səlahiyyətlərini icra edən Artur Rasi-zadənin iş başında olduğunu da söylədi: “Həmişəki kimi, iş başındadır. Səhər görüşmüşəm”.

“Yeni baş nazir kimi hazırkı müavinlər Yaqub Eyyubov və Əli Əhmədovun adları çəkilir. Bu barədə nə deyə bilərsiniz?”-sualına cavab olaraq A.Əli belə dedi: “Bütün bunlar gümanlar ola bilər. Yəni bunu heç kim proqnozlaşdıra bilməz. Çünki bu səlahiyyət yalnız və yalnız cənab baş nazirə aiddir. Prezidentin qərarı olmayana qədər bütün danışılan söhbətlər yalnız gümandır. Bir daha deyirəm, bu, cənab prezidentin səlahiyyətində olan məsələdir”.

**Maraqlıdır, illərdir Baş nazir postunu tutan Artur müəllim özü necə, yeni baş nazir olmağa özünü hazırlıqlı bilirmi, yoxsa getmək istəyir? A.Əli bu suala elə sualla cavab verdi:** “Mən Artur müəllimin əvəzinə necə deyə bilərəm?

**İclasa saatlar qalmışkən hamının nəzərləri ölkə prezidentinə dikilib; Artur Rasi-zadə yenidən postuna təsdiqlənəcək, yoxsa yenisi ilə əvəzlənəcək?..**

❑ **Elşad PAŞASOY, “Yenì Müsavat”**

# Prezidentin andiçmə mərasimindən çıxarılan nəticələr

## Fəzail Ağamalı: “Andiçmə mərasimi çox vəsait tələb etməyən, çox sadə formada keçirildi”

**Aprelin 18-də Azərbaycan prezidenti İlham Əliyevin Milli Məclisdə keçirilən andiçmə mərasiminə Bakıdakı xarici ölkə səfirliklərinin, xarici ölkələrin dövlət və hökumət başçılarının dəvət olunmamasını bəzi müxalifət qüvvələri “diplomatik məğlubiyyət” kimi qələmə verməyə çalışırlar. Onlar iddia edir ki, diplomatik korpusun andiçmə mərasimində olmaması seçkinin nəticələrinə göstərilən münasibətdir.**



**Deputat Fəzail Ağamalı** isə “Yeni Müsavat”a şərhində bildirib ki, bu cür iddialar xəstə düşüncələrdən irəli gəlir. Yüksək siyasi mədəniyyətlə, şəffaf demokratik keçən prezident seçkilərinə başqa bir arqument tapa bilmədiklərindən yenə də heç bir əsası olmayan fikirlərlə ölkə prezidentinin qələbəsinə kölgə salmağa çalışırlar. Bütün bu cəhdlər mənasızdır, düşüncəsizlikdir və Azərbaycan dövlətçiliyinə xidmət deyil: “Bu yanaşma ermənilərin, anti-Azərbaycan qüvvələrin yanaşması ilə eynidir, üst-üstə düşür. Bəlli olur ki, məhz bu antimilli qüvvələr Azərbaycana qarşı fəaliyyət göstərən xarici qüvvələrin içərisində yer alıblar.

Bunu doğrudanmı bilmək çox çətin məsələdir ki, hər bir ölkə özünün istər parlament seçkilərinin, istər prezident seçkilərinin nəticələrini hansı səviyyədə, hansı şəkildə yekunlaşdırmaq hər bir ölkənin müstəsna səlahiyyətləridir. Bu müstəsna səlahiyyətlərin içərisində əlbəttə dünyanın təcrübəsi də nəzərə alınır, inkişaf etmiş ölkələrin tətbiq etdiyi bu və ya digər yanaşmalar nəzərə alınır.

Azərbaycan prezidentinin andiçmə mərasimi birbaşa cənab prezidentin özünün şəxsi yanaşması əsasında protokol xidmətinin həyata keçirmiş olduğu mühüm bir tədbirdir. Azərbaycan prezidentinin andiçmə mərasiminə çoxsaylı səfirlikləri, diplomatik nümayəndələri, xarici ölkələrin rəhbərlərini də dəvət etmək olardı. Onların dəvət olunmasında və onların iştirakında da hər hansı bir problem olmazdı. Necə ki, Avropa İttifaqının prezidentindən tutmuş onun yüksək səviyyəli məmurlarına qədər, Avropa Şurasının rəhbəri, çoxsaylı dövlətlərin başçıları, çoxsaylı müşahidə missiyaları seçkilərə müsbət rəy veriblər və cənab İlham Əliyevi təbrik ediblər. Sadəcə olaraq, Azərbaycan prezidenti andiçmə mərasiminin sadə şəkildə keçirilməsini məqsədəuyğun hesab edib. 2013-cü ildə tətbiq olunan andiçmə mərasimi bu il də çox düzgün olaraq təkrarlandı. Andiçmə mərasimi çox vəsait tələb etməyən, çox sadə formada keçirildi. Bu da ölkə prezidentinin söykənmiş olduğu dəyərlərlə bağlıdır".

**Deputat onu da dedi ki, eyni zamanda cənab prezident bu andiçmə mərasimindən sonra bir sıra yeni elementləri də gündəliyə gətirdi. Hər bir azərbaycanlının ürəyindən olan bir yenilik idi. Ölkə prezidenti ailəsi ilə bərabər ulu öndərin məzarını, Şəhidlər Xiyabanını ziyarət etməsi, Bayraq meydanına getməsi orada Azərbaycanın Dövlət himninin səslənməsi və bu zaman yaylım atəşinin açılması yeni elementləridir**: “İndi əgər Əli Kərimli və onun kimi düşünənlər bu xoş əhval-ruhiyyədən kənardadırlarsa, onlar ən müxtəlif bəhanələrlə prezident seçkilərinə kölgə salmağa çalışırlarsa bu, artıq onların anti-vətəndaşlıq mövqeyidir. Sözləri, arqumentləri qalmadığından sadə şəkildə keçirilən andiçmə mərasimindən məntiqsizcəsinə yararlanmaq istəyirlər. Əsas məsələ Azərbaycan xalqının qiymətləndirməsidir ki, xalqın 95 faizindən çoxu məhz bu cür keçirilən andiçmə mərasimini yüksək qiymətləndirdi”.

❑ **Etìbar SEYÌDAĞA, “Yenì Müsavat”**

# Seçki öncəsi Türkiyədə vəziyyət gərginləşə bilər

## Pənah Hüseyn: "Erkən seçkini təyin edərkən iqtidar bu məsələni nəzərə alıb"
## Əhəd Məmmədli: "Xaricdəki düşmənlər daxildəki uzantılarının əli ilə vəziyyəti qarışdırmağa cəhd edə bilər"

**Türkiyədə növbədənkənar prezident seçkilərinin keçirilməsi əsasən daxili və xarici faktorlardan irəli gələn addım kimi şərh edilir. Çünki 2019-cu ilə kimi Türkiyəyə qarşı müəyyən ssenarilərin hazırlanması masada idi.**

Bəzi təhlilçilər isə hesab edir ki, seçki gələn ilin noyabrında keçirilsəydi, Rəcəb Tayyib Ərdoğanın yenidən hakimiyyətdə qalmasının qarşısını almaq üçün Qərb dairələri mütləq şəkildə daxildə və xaricdə yeni təhdidlərə əl atacaqdılar. Növbədənkənar seçki qərarı həmin qüvvələri fors-major vəziyyətə salıb.

*Bəs, Türkiyədə növbədənkənar seçkilər qərarı ölkədə gərginlik yarada bilərmi? Ölkəni qarışdırmaq istəyən Türkiyə düşmənləri terror aktları törədə bilərmi?*

**AXP sədri Pənah Hüseyn** "Yeni Müsavat"a öncə bildirdi ki, növbədənkənar seçkiyə getmək Türkiyə cəmiyyətinin, dövlət orqanlarının suveren haqqıdır. Bu, Türkiyənin daxili məsələsidir. Erkən seçki əslində gözlənilməz olmadı: "Mən bir qədər əvvəl Ankarada olmuşdum. Orada müzakirələr zamanı erkən seçkinin yaxın zamanlarda gözlənildiyi barədə söhbətlərin getdiyini görmüşdüm. Növbədənkənar seçkinin təşəbbüskarı kimi çıxış eləyən MHP liderinin və məsələni rəsmən irəli sürən prezident Ərdoğanın çıxışlarında, Türkiyə parlamentinə göndərilən təqdimatda növbədənkənar seçkiyə gedilməsinin əsaslandırılması əksini tapırdı. Türkiyənin bütün siyasi qüvvələri bu məsələdə həmrəylik nümayiş etdirdilər. Əslində erkən seçim tələbləri xeyli əvvəl bir neçə dəfə CHP tərəfindən, digər müxalif qüvvələr tərəfindən bir siyasi tələb kimi qoyulurdu. O baxımdan, məncə, növbədənkənar seçkilərin təyin olunmasının xeyli üstün tərəfləri oldu. Qeyd elədiyim əsaslandırılmalarda göstərilir ki, seçki Türkiyənin indiki mürəkkəb regional, geopolitik, daxili siyasi məsələlərinin həllini daha da asanlaşdırması, gözlənilə biləcək təhlükələrdən, o cümlədən xaricdən olan təhlükələrdən qorunması üçün lazımdır. Seçkinin təxminən ilyarım irəli çəkilməsi əksər siyasi qüvvələr tərəfindən həmrəyliklə qarşılandı. Həm də nəzərə almaq lazımdır ki, Türkiyə müxalifəti parlament müxalifətidir, kifayət qədər inkişaf edib, maliyyə imkanlarına malikdir, özlərinin kütləvi informasiya vasitələri var. O baxımdan əlbəttə ki, müxalif qüvvələrin erkən seçkilərə hazır olması səviyyəsi də Azərbaycanda olduğundan fərqli situasiyadır. Bu seçkilərin Türkiyə üçün uğurlu olmasını diləməliyik. Türkiyə faktiki olaraq çox ciddi, o cümlədən hərbi xarakterli problemlərlə uğraşır. Güman eləmirəm ki, Türkiyəyə qarşı hansısa xarici diversiya aktları, müdaxilələr açıq şəkildə həyata keçirilsin. Amma hazırda iqtidarın rəqibləri, bu iqtidarın getməsini istəyən beynəlxalq güclər, dövlətlər şübhəsiz ki, istəklərinə nail olmaq üçün erkən seçkidən maksimum istifadə etməyə çalışacaqlar. Erkən seçkini təyin edərkən hər halda Türkiyə iqtidarı bu məsələni nəzərə almamış deyil".




**Politoloq Əhəd Məmmədli** isə bildirdi ki, Türkiyədə növbədənkənar seçkilər ölkədaxili gərginliyə gətirib çıxarmayacaq. Amma təbii ki, xaricdəki düşmənlər daxildəki uzantılarının əli ilə Türkiyə də vəziyyəti qarışdırmağa cəhd edə bilər: "Lakin nəzərə alsaq ki, son iki ildə PKK, FETÖ, İŞİD kimi terror təşkilatlarına Türkiyə dövləti çox ciddi zərbələr vurub, qardaş ölkədə terror təhlükəsi ehtimalı əvvəlkindən daha aşağıdır. Buna rəğmən yenə də terror təhlükəsi bütün ölkələrdə olduğu kimi Türkiyədə də var. Heç şübhəsiz, hakimiyyət də bu təhlükəni nəzərə alıb buna qarşı preventiv addımlar atacaq".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Amerikanın Azərbaycandakı səfirliyinin passivliyinin pərdəarxası

## Elşən Mustafayev: "ABŞ səfirliyinin fəaliyyət istiqamətlərində korrektələr olub"

**Son illərdə Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin fəaliyyəti, demək olar ki, nəzərə çarpmır. Əvvəllər səfir və ya onun müavinləri iqtidar və müxalifət düşərgəsi ilə intensiv əlaqələr saxlayır, görüşlər keçirir, siyasi gündəmi əhatə edən məsələlərə dair polemikalar aparırdılar. Xüsusilə Azərbaycanda prezident və parlament seçkiləri olan illərdə Amerika səfirliyi fəaliyyətini daha çox aktivləşdirirdi.**



Ölkəmizdə 11 apreldə keçirilən növbədənkənar prezident seçkisi prosesində Amerika səfirliyinin heç bir fəaliyyətinə rast gəlmədik. Doğrudur, hazırda Azərbaycanda Amerika səfiri yoxdur, səlahiyyət müddəti başa çatdığına görə bu ayın əvvəllərində Robert Sekuta ölkəni tərk edib. Amma səfir səlahiyyətlərini icra edən şəxsin olduğu məlumdur. Sanki ABŞ bu seçkiləri görməzlikdən gəldi. Bir zamanlar siyasi partiyaların qərargahlarında lövbər salan Amerika səfirliyi rəsmilərinin sonuncu dəfə hansı partiyanın qərargahında göründüyünü xatırlamaq mümkün deyil.

Ekspertlər müxalifətin son illərdə passivləşməsinin mövcud situasiyanı yaratdığını düşünürlər. Amerikanın Azərbaycanda hər hansı bir dəyişikliyin olacağına ümidlərinin tamam bitdiyi üçün buradakı siyasi proseslərə qarışmağa maraq göstərmədiyi bildirilir. Ölkə iqtidarının Amerika səfirliyinin bu cür fəaliyyətində maraqlı olduğu da iddia edilir. Rəsmi Vaşinqtonun Azərbaycana səfir təyinatını yubatmasının da səbəbsiz olmadığı qeyd edilir.

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev** məsələyə bu cür şərh verdi: "Azərbaycandakı ictimai-siyasi prosesləri hakimiyyətlə, müxalifət partiyaları və qeyri-hökumət təşkilatları ilə mütəmadi müzakirə edən 3-4 səfirlik var ki, bunlardan biri də həmişə ABŞ-ın Azərbaycandakı səfirliyi olub. Onların son 5 ildəki fəaliyyətləri əvvəlki illərə baxanda daha zəif olub .Yəni istər hakimiyyət, istərsə də, müxalifət nümayəndələri ilə məsləhətləşmələrdə, görüşlərdə kifayət qədər seyrəklik var. Mən bu görüşlərin və təmasların ictimaiyyətə açıq olan hissəsini nəzərdə tuturam. Qeyri-rəsmi belə görüşlərin olub-olmaması ilə bağlı dəqiq bir söz söyləyə bilmərəm . Amma görünən odur ki , ABŞ səfirliyinin fəaliyyət istiqamətlərində korrektələr olub. Hazırda daha çox maarifləndirici layihələrə üstünlük verilir. Bunu müxtəlif səbəblərlə izah etmək olar. Birincisi, ölkədəki siyasi aktivliyin əvvəlki illərə nisbətən daha zəif olmasıdırsa, ikincisi də hakimiyyətin bu təmaslarla o qədər də maraqlı olmamasıdır. Bunu keçmiş səfirin özünün şəxsi keyfiyyətləri və burada olduğu müddətdə gəldiyi hansısa qənaətlərin nəticəsi kimi də qiymətləndirmək olar. Eyni zamanda bu gün ABŞ üçün prioritet məsələ yaxın Şərq problemi və problemdən dolayı Rusiya və İranla aralarında yaranmış gərginlikdir. Azərbaycan bu regiona yaxın olduğu, həmçinin Rusiyanın maraq dairəsində olan dövlətlərin sırasında durduğu üçün çox güman ki, indiki durumda hakimiyyətlə hər hansı problemin yaşanması da arzuedilməz hesab edilir. Düşünürəm ki, prezident seçkisində və kampaniya dövründə ABŞ səfirliyinin aktivlik göstərməməsinin bir səbəbi namizədlər arasında İlham Əliyevə ciddi alternativ olmamasına görə nəticələrin öncədən bəlli olması idisə, digər səbəbi ənənəvi müxalifətin bu seçkilərdə iştirak etməməsi oldu. Robert Sekutanın məhz seçki kampaniyası gedişində ölkədən getməsi və yeni səfirin təyin edilməməsinin də müəyyən rolları var".

**Ekspert Azərbaycanda ABŞ səfiri postunun boş qalmasına da münasibət bildirdi: "Çox güman ki, yaxın vaxtlarda ABŞ-ın yeni səfiri təyin olunacaq və Azərbaycana gələcək. Adətən iki ölkə arasında münasibətlər səfirin kimliyindən və şəxsi keyfiyyətlərindən də asılı olur. Çünki ABŞ dövlətlərdə hansısa siyasəti yürütməyi qarşısına məqsəd qoyubsa, təcrübəsinə, xarekterinə görə o siyasəti həyata keçirmək parametrlərini özündə cəmləşdirən səfirləri ora təyin edir".**

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Türkiyə parlamenti: kimin neçə mandatı var?

**İyunun 24-ü Türkiyədə prezident və parlament seçkiləri keçirilməsi nəzərdə tutulur. Bu seçkilərdən sonra ölkənin idarə üsulu dəyişir: baş nazir postu ləğv edilir, prezident hökumət başçısı olub kabineti formalaşdırır, parlamentin səlahiyyətləri qanunvericilik işi ilə məhdudlaşır.**

İndi Türkiyə parlament respublikasıdır, hökuməti 550 nəfərlik parlamentdə azı 276 mandatı olan partiya qurur.

Yeni seçiləcək parlament 600 deputatdan ibarət olacaq.

Novator.az bildirir ki, hazırda parlamentin 537 deputatı var. Hakim Ədalət və İnkişaf Partiyası (AKP) 316 mandata sahibdir. Ana müxalifət qurumu olan Cümhuriyyət Xalq Partiyası (CHP) parlamentdə 131, Xalqların Demokratik Partiyası (HDP) 48, Milliyyətçi Hərəkat Partiyası (MHP) 36, İyi Parti (Yaxşı Partiya) 5 mandatla təmsil edilir. 1 deputat partiyasızdır.

Ədalət və İnkişaf Partiyası 2002-ci ildən bəri hakimiyyətdədir. Partiyanın sədri Rəcəb Teyyub Ərdoğan 2003-cü ildən 2014-cü ilədək baş nazir olub. 2014-cü ildən prezidentdir.

YENİ MÜSAVAT
N 86 (6975) 21 aprel 2018

**Azərbaycan prezidenti İlham Əliyevə prezident seçilməsi münasibətilə müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların rəhbərlərindən təbrik məktubları gəlməkdə davam edir. Avropa Komissiyasının sədri Jan Klod Yunker, Almaniya Federativ Respublikasının prezidenti Frank-Valter Ştaynmayer də aprelin 19-da təbrik məktubu ünvanlayıb. ABŞ prezidentindən nə zaman təbrik gələcəyi isə həmişə olduğu kimi yenə maraqla izlənir.**



# Azərbaycan prezidentinə Qərbdən gələn təbriklər

## Siyasi ekspert: "Tezliklə Trampın təbrikinin də şahidi olacağıq"

Qeyd edək ki, 2013-cü ildə Barak Obamadan Azərbaycan prezidentinə təbrik seçkidən xeyli sonra olmuşdu. Bu dəfə ABŞ-ın yeni prezidenti Donald Trampın necə davranacağı maraq doğurur.

**Gənc Demokratlar İnstitutunun direktoru, siyasi ekspert Yeganə Hacıyeva** "Yeni Müsavat"a şərhində bildirdi ki, 11 aprel növbədənkənar seçkidən sonra Avropa Şurasının baş katibi Torbyorn Yaqland , Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk, Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker, Avropanın aparıcı iqtisadi və siyasi nəhəngi olan Almaniyanın prezidenti Frank-Valter Ştaynmayer İlham Əliyevi seçkilərdə qələbə qazanması münasibətilə təbrik etdi. Təbriklərin mətnləri özlüyündə Aİ və Azərbaycanla mövcud münasibətlər və onların inkişafı prioritetləri mənzərəsi yaradır. Təbrik mətnlərinin ana xəttini Avropa İttifaqı və Azərbaycan arasında münasibətlərin dərinləşdirilməsi arzusu, siyasi və iqtisadi maraqlarımıza söykənən daha əhatəli yeni ikitərəfli strateji tərəfdaşlıq sazişi üzrə aparılan danışıqların yekunlaşdırılması istəyi, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da gücləndirilməsi , "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində ikitərəfli əlaqələrin daha da inkişaf etməsi arzusu təşkil edir: "Qlobal siyasi və iqtisadi maraqlara əsaslanan yeni geniş ikitərəfli saziş üzrə aparılan danışıqlar vasitəsilə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər daha da dərinləşəcəyinə inam ifadə olunur.

Almaniya prezidenti Frank-Valter Ştaynmayerin təbrikində isə xüsusi olaraq Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da güclənməsinə səy göstərməyə hazırlıqdan məmnuniyyət ifadə olunub.

Azərbaycan ABŞ-ın vacib strateji-iqtisadi tərəfdaşı, qlobal enerji təhlükəsizliyində və Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olaraq qalır. Azərbaycan yenə də ABŞ-ın qlobal hərbi strateji, enerji stabilliyi və təhlükəsizliyində mühüm rol alan bir tərəfdaşı kimi həmçinin Avropanın enerji təhlükəsizliyində və qitələrarası transmilli enerji nəqli marşrutlarında ABŞ-la eyni mövqedən çıxış edir. Münasibətlərdə dəyişən və ya gərginləşən bir məqam mövcud deyil.

Bilirik ki, Azərbaycan ABŞ-ın vacib hərbi-strateji, etibarlı iqtisadi tərəfdaşı, qlobal enerji təhlükəsizliyi mövzusunda etibarlı tərəfdaş, ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. ABŞ Əfqanıstandakı missiyası və Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri üçün döyüş təyinatı olmayan yüklərin daşınmasında Azərbaycan hava məkanından istifadə edir, ABŞ-ın əsas qlobal hərbi tərəfdaşı olmaqda davam edən NATO-nun Əfqanıstandakı missiyası üçün nəzərdə tutulan bütün yüklərin daşınması, Şimal paylaşdırma şəbəkəsinin cənub marşrutu üzrə yüklərin 40 faizini Azərbaycanın hava məkanı və aeroportlarından istifadə etməklə həyata keçir. Azərbaycan uzun illər Əfqanıstan, İraq, Kosovodakı sülhməramlı missiyalarında ABŞ-ın etibarlı tərəfdaşı kimi iştirak edib. ABŞ-ın da maraqlı olduğu Avropanın enerji təhlükəsizliyində mühüm yer tutan layihələrdə, enerji nəqli marşrutlarının Gürcüstan-Türkiyə xətti ilə Avropaya çatdırılması siyasətinin təşəbbüskarı və aktiv dəstəkçisidir".

**Ekspert qeyd etdi ki, bütün bunlara baxmayaraq uzun illər ABŞ-ın Azərbaycanla bağlı xarici siyasətinin ana xətti daha çox Rusiyanın Qafqazdakı təsir dairəsini zəiflətmək istəyi üzərində qurulmuşdur. Bu xüsusi ilə Barak Obamanın prezidentliyi dövründə özünü biruzə verirdi:** "Lakin ABŞ-ın yeni Tramp administrasiyası, qlobal siyasi sistemdə gərginləşən münasibətlər fonunda dəyişən, yenidən formalaşan güclər balansı fonunda, ölkəsinin qlobal enerji və beynəlxalq təhlükəsizliyə təsir imkanlarına malik Azərbaycanın strateji tərəfdaş kimi əhəmiyyətini yüksək qiymətləndirir. Yeni administrasiyanın ABŞ milli mənafeləri baxımından əlverişli geosiyasi ərazidə yerləşən, zəngin təbii ehtiyatlara, neft yataqlarına malik, beynəlxalq hüquq və prinsiplərə hörmət edən, sivil və müstəqil siyasət həyata keçirən strateji tərəfdaşı kimi Azərbaycanı özü üçün Cənubi Qafqazda prioritet ölkə seçdiyini bəyan edib. Bütün bu sadaladıqlarımı yekun rəyi kimi bildirim ki, tezliklə Donal Trampın İlham Əliyevi seçkilərdə qələbə qazanması münasibətilə təbrikinin şahidi olacağıq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Məmmədyarov gedirmi, qalırmı...

## Qabil Hüseynli: "Xarici işlər nazirini ortabab siyasətçi hesab edirəm"

**Azərbaycanda yeni hökumətin formalaşması ərəfəsində komandadan kimlərin uzaqlaşdırıla biləcəyi haqda geniş müzakirələr gedir. Müzakirələr əsnasında adı hallanan nazirlərdən biri də xarici işlər naziri Elmar Məmmədyarovdur.**



Son zamanlar hakimiyyətə yaxın deputat və ekspertlərin də tənqid hədəfi olan Məmmədyarovun yerinə təyin olunacaq şəxsin adı ilə bağlı da məlumatlar dolaşır. "Yeni Müsavat"ın məlumatına görə, Məmmədyarovun yerinə təyin olunacaq şəxs Azərbaycanın Amerikadakı səfiri Elin Süleymanovdur.

Yada salaq ki, seçki debatlarında prezidentliyə namizəd Zahid Oruc çıxışlarının birindi Məmmədyarov barəsində tənqidi fikirlər səsləndirmişdi. Z.Oruc vurğulamışdı ki, E.Məmmədyarov on illərdir ki, apardığı danışıqlar haqqında bir dəfə də xalqa, nə də ki, Milli Məclisə hesabat verməyib: "Olmazdımı bir dəfə Avropa ölkələrinin Azərbaycandakı səfirlərini yığıb onlara ölkəmizin daxili işlərinə qarışmamalarını, ölkələrinin Azərbaycanla təhdid dilində danışmalarının, qorxulu çağırışların yolverilməz olduğunu bildirəydiniz, mövqeyinizi ortaya qoyaydınız? Səfirlərə demək mümkün deyilmi Avropada ayrı-ayrı qüvvələri İŞİD-çi qiyafəsində hazırlayıb bizim əleyhimizə himayə eləməkdə məqsədiniz nədir? Axı gördüyünüz kimi onlar dövlətə, Allaha, mənəviyyata, hər şeyə təhlükə törətdiklərini ortaya qoyurlar. Məgər bu bəs deyilmi ki, siz onlara bu məsələ ətrafında öz mövqeyinizi, fikirlərinizi bildirəsiz?"

**Deputat Fəzail Ağamalı** da həm Milli Məclisdəki çıxışında, həm də "Yeni Müsavat" a açıqlamasında bildirmişdi ki, Məmmədyarovun fəaliyyəti günün tələblərinə cavab vermir: "İşğal olunmuş torpaqlarımızın azad edilməsinə cavab verən fəaliyyət aparılmır. Elmar Məmmədyarovun xalqımız qarşısında ən böyük xidməti o olardı ki, öz təşəbbüsü ilə istefaya getsin. Görünən odur ki, Elmar Məmmədyarov bu işin öhdəsindən gələ bilmir".

*Doğrudanmı Azərbaycanın xarici siyasətində nöqsanların əsas səbəbkarı Elmar Məmmədyarovdur? Onun vəzifədən uzaqlaşdırılması nəyi dəyişəcək?*

"Yeni Müsavat"a danışan **politoloq Qabil Hüseynli** bildirib ki, Azərbaycanın xarici siyasəti adı ilə bağlıdır: "Ölkənin xarici siyasəti bilavasitə prezidentin rəhbərliyi altında yürüdülür. Xarici siyasətimizin uğurlarının böyük hissəsi də İlham Əliyevin adı ilə bağlıdır. Onun xarici səfərləri, beynəlxalq təşkilatlarda çıxışları hər kəsə məlumdur. Ona görə də Azərbaycan xarici siyasətinin aparıcı siması kimi hər zaman ölkə prezidenti İlham Əliyevi görmüşəm. Xarici işlər nazirinin özünə gəldikdə isə onu ortabab bir siyasətçi hesab edirəm. O, prezidentin müəyyən etdiyi siyasətin ana xətlərini yerinə yetirməyə çalışır. Çox hallarda da bunu uğurla yerinə yetirir. Ancaq eyni zamanda baş verənlər bunu uğurlu xarici siyasət amili kimi səciyyələndirməyə yetmir. Xüsusən də onun Azərbaycan dilini yaxşı bilməməsi və yaxşı bir natiq olmaması bəzən sadə insanlarda yanlış fikirlərin yaranmasına səbəb olur. Ona görə də bütün bunlar nəticə etibarı ilə Elmar Məmmədyarovla bağlı müsbət fikirlərin formalaşmasına imkan vermir. Bütün bunlara baxmayaraq, hesab edirəm ki, Azərbaycanın xarici siyasəti düzgün yoldadır. Bu siyasətin də sükanında Azərbaycan prezidenti İlham Əliyev dayanır".

**Politoloq bildirib ki, Elmar Məmmədyarovu hesabat verməməkdə qınayanlar haqlıdırlar:** "Məmmədyarov hər zaman hesabat verməlidir. Ona görə də bu barədə çıxış edən şəxslər, məsələni doğru vurğulayırlar. Məlumdur ki, xarici siyasətin bütün nüanslarını hər kəsin, ictimaiyyətin qarşısında açıqlayıb hesabat vermək olmaz. Ancaq ana xətləri, bilavasitə korrektəyə ehtiyacı olan məsələləri parlamentdə bölüşməlidir. Əgər o, bunu etmirsə o zaman hesab edirəm ki, çox ciddi səhvə yol verir. Bütün bunlar səbəblərdən də şəxsiyyətinə hörmətim olsa da, onu yeni hökumətin tərkibində görməkdə çətinlik çəkirəm. Bu fikirləri onunla əlaqələndirirəm ki, o, yuxarıda da qeyd etdiyim kimi çıxışları ilə sadə camaata təsir edə bilmir. İstərdim ki, daha səlis danışan və bacarıqlı diplomat xarici işlər naziri olsun".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Zəifləyən erməni lobbisi və "ermənilərə işləyən" sözünün fəsadları...

## Politoloq: "Bir qrup elə hesab edir ki, erməni dünyanı idarə edir..."

**Ölkədə "ermənilərə işləmək" kimi qarşılıqlı suçlamalar yeni deyil. Xüsusilə də xaricdə fəaliyyət göstərən qurumlardan Azərbaycana qarşı hər hansı bir təhdid, qərar olduğu zaman bunu erməni lobbilərinin, ermənilərə işləyən şəxslərin adı ilə bağlayırlar.**

Məsələ ilə bağlı tez-tez iqtidar nümayəndələrinin də dilindən fikirlər eşidirik. Onlar isə müxalifətin üzdə olan bəzi nümayəndələrini "ermənilərin agenti" hesab edirlər. Eyni fikirləri müxalifət nümayəndələri də iqtidarın bəzi məmurlarına qarşı işlədir. Nəticə olaraq ermənilərin adı gündəmdə saxlanılır, onlar bir növ ictimaiyyətdə piar olunurlar.

*Məlumdur ki, işğalçı Ermənistan dövləti tarixən Azərbaycana və xalqımıza qarşı olmazın qəddarlıq edib. Lakin indiki halda ermənilərin adının bu cür hallandırılması sanki onları bir növ olduqlarından güclü göstərmək kimi hiss edilir. Bu siyasət necə qurulmalıdır?*

"Yeni Müsavat"a danışan **politoloq Mübariz Əhmədoğlu** bildirib ki, bəzi şəxslər gərək bir-birilərini təhqir edən zaman ifadələrinə diqqət etsinlər: "Sirr deyil ki, Ermənistanda azərbaycanlı və türk sözü hədsiz dərəcədə neqativ fona malikdir. Onlar da bir-birilərini söyən zaman bu ifadələri işlədirlər. Ciddi məlumatlara istinad etsək Azərbaycanda hansısa erməni casusunun aşkarlandığını görməmişəm. Ancaq hal-hazırda Ermənistanda bununla bağlı məhkəmə işi var. Ermənilər öz vətəndaşları arasında "Azərbaycana işləyənləri" həbs ediblər. Belə bir dövrdə isə Azərbaycanda tərəflər bir-birilərinə söyüş söyləsələr, "ermənilərə işləyən" deməkdən yaxşıdır. Təəssüf ki, bizdə bəzi adamlar erməniləri daha güclü kimi təqdim edirlər. Biz, böyük millətik. Karl Marks Şah İsmayıl Xətai haqqında deyirdi ki, o, 15 il hakimiyyətdə olub, 15 dövlət işğal etdi. Yəni biz imperiya quran dövlət olmuşuq. O da faktdır ki, biz digər imperiyaların da tərkibində uzun müddət yaşamışıq. O kontekstdən bəzi adamlar var ki, Azərbaycan xalqının gücünə inanmır. Bu, onlarda genetik olaraq formalaşıb. Onların da bir qrupu elə hesab edir ki, erməni dünyanı idarə edir və Ermənistan Azərbaycandan güclüdür".


Mübariz Əhmədoğlu

**Politoloq bildirib ki, dünyada erməni lobbisi də getdikcə zəifləməkdə davam edir**: "ABŞ-da erməni lobbisinin əhatə dairəsi daralıb, ancaq Konqreslə işləyə bilir. Digər qurumlar onları yaxına buraxmırlar. ABŞ Konqresində də rəsmən qeydiyyata alınmış ermənipərəst konqresmenlərin sayı 90 nəfərdir. Bununla yanaşı, 90 nəfərdən 60 nəfəri aktiv deyil. Erməni lobbisinin ABŞ-da cəmiyyətlə işləmək imkanı yoxdur. Son dövrlərdə onlar arasında bir nəfər də olsa parlaq şəxs ortaya çıxmayıb. Ermənilərin axır vaxtlar adı ancaq kriminal hadisələrdə hallanır. Baxırsan ki, informasiya texnologiyaları üzrə mütəxəssislər ki, Ermənistandan gedib, orada şəbəkə yaradıb, Amerika şirkətlərindən pul oğurlayırlar. Eynilə bu qaydada Avropada yaşayan erməni təşkilatlarının da fəaliyyəti barəsində danışmaq olar. Son dövrdə Avropada da ciddi aktivlik qeydə alınmayıb. Yalnız aktivlik Fransada müşahidə olunub. Nəzərə alaq ki, Fransada olan ermənilərin sayı, elə ABŞ-da olan ermənilərin sayı qədərdir. Yəni Fransada 500 min erməni yaşayır. 500 min erməninin gördükləri işi təhlil edən zaman görürsən ki, ortada ciddi nə isə yoxdur. Fransada bir zamanlar adı hallanan ermənilərin indi isimləri heç bir yerdə keçmir. Onların hamısı sıradan çıxıb. Ümumiyyətlə, Avropa miqyasında bir qədər fərqli proses başlayıb. Frank Engel adlı Lüksemburqlu Avropa parlamentari var. Onun həyat yoldaşı ermənidir. Vaxtilə bu şəxs Ermənistana gəlib, qondarma soyqırımın tanınması uğrunda mübarizə aparırdı. İndi isə onu Avropa komissiyası ermənilərin özlərinə qarşı çevirib. Avropa məkanında aktiv erməniləri artıq özlərinə qarşı çevirirlər. Ona görə də erməni diasporunun parlaq hərəkəti yoxdur. Fransada 500 minlik erməni lobbisi qondarma erməni soyqırımının kriminallaşması haqqında qanunu qəbul etdirə bilmirlər. Söz yox ki, erməni lobbisi güclü olanda Fransa bu soyqırımı tanıyıb. Ancaq indiki vəziyyət fərqlidir. Qanuna görə orada kim erməni soyqırımını inkar edərsə, o, gərək həbs edilə. Ancaq ermənilər bunu qəbul etdirə bilmirlər. Rəsmi məlumatlara görə, dünyada ən çox ermənilərin mühacir etdiyi dövlət İran olub. Lakin orada da artıq erməni qalmayıb. Yəni ermənilər İranın da siyasətinə təsir edə bilmirlər. İranın Ermənistana olan münasibəti heç də oradakı lobbinin işi deyil. Bu, İran dövlətinin daxilində müəyyən şəxslərin məsələsidir. Suriyada 100 minlik erməni lobbisi vardı ki, indi onların da sayı 10 minə qədər azalıb. İraqdakı ermənilər də Səddam Hüseynə xəyanət etdilər və daha sonra iraqlılar tərəfindən qovuldular. Yaxın Şərq dövlətlərində də erməni lobbisi azalıb. Ola bilər ki, onlar Uruqvay, Argentinada fəaliyyət göstərsinlər. Azərbaycan dövləti bu dövlətlərlə olan siyasətini elə əsasən erməni lobbisinə qarşı durmaq istiqamətində qurub. Ona görə də "ermənilərə işləyən" deyib, onları güclü göstərmək olmaz".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Köhnə müxalifəti silən iqtidar yenilər barədə nə düşünür?

## Tural Abbaslı: "Bundan sonra iqtidar və müxalifət arasında normal, sivil dialoq mühitinin yaranması mümkündür"

**Azərbaycan hakimiyyətinin ona rəqib olan ənənəvi müxalifəti düşüncəsindən sildiyi, bu düşərgəyə rəqib kimi baxmadığı göz önündədir. Xüsusilə milli azadlıq hərəkatının şinelindən çıxanları iqtidar ən çox ciddiyə alır. Hökumət təmsilçilərinin zaman-zaman verdikləri açıqlamalarda bu, açıq şəkildə görünür.**

Prezident İlham Əliyevin aprelin 18-də keçirilən inauqurasiya mərasimindəki çıxışı zamanı da bu bir daha özünü göstərdi.

**Sitat:** "Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun".

Bütün bunlar onu göstərir ki, hakimiyyət də ona rəqib düşərgədə yeni qüvvələrin önə çıxmasında maraqlıdır. Bu, 11 apreldəki prezident seçkilərində bir daha özünü büruzə verdi. İqtidar ənənəvi müxalifətlə bütün körpülərin yandığını yaxşı anlayır, münasibətlərin isə düşmənçilik səviyyəsində olduğunu bilməmiş deyil. İqtidar tərəfindən yeni müxalif qüvvələrə münasibətdə də müsbət rüşeymlər görünməkdədir. Bu isə ümidlənməyə əsas verir ki, hazırda müxalif vitrinə təzə çıxan qüvvələrlə hakimiyyət arasında yaxın gələcəkdə normal iqtidar-müxalifət münasibətləri yaradıla bilər.


Tural Abbaslı

Müxalif yeni qüvvələrin öncüllərindən sayılan **AĞ Partiya sədri Tural Abbaslı** bildirdi ki, hakimiyyətin ənənəvi müxalifətə olan münasibəti açıq şəkildə sezilir: "Bunun siyasi və ya şəxsi səbəblərdən yaranması barədə konkret nəsə demək çətindir və eyni zamanda anlaşılmazdır. Çünki siyasi münasibətlərdə belə yanaşmalar qəti yolverilməzdir. Bu yalnız iqtidarın müxalifətə münasibətinə aid deyil, həmçinin də müxalifətin iqtidara münasibətində siyasi rəqabətdən və siyasi rəqibdən daha çox şəxsi düşmənçilik prinsiplərinin yürüdülməsi qəbul olunan deyil. Siyasi mübarizənin siyasi düşmənçiliyə çevrilməsi inkişafa və islahatlara böyük zərbə olur. Belə ki, bu zaman iqtidar, müxalifət və xalq arasında dərin uçurumlar yaranır. Bu uçurumlar isə dövləti xarici müdaxilələr qarşısında zəif duruma salır. Bir sözlə belə düşmən münasibətlərinin zərərini iqtisadi, siyasi, təhlükəsizlik və s. baxımından dövlət və xalq çəkir. Əgər hakimiyyət bu və ya digər səbəblərdən köhnə müxalifətlə işləmək istəmirsə və yeni güclü, sağlam, müstəqil müxalifətin formalaşmasını istəyirsə, ilk növbədə, özünün müxalifətə münasibətini dəyişməlidir. Müxalifət siyasi sistemin ayrılmaz və labüd hissəsi kimi qəbullanmalı və bundan irəli gələn addımları gecikdirmədən atmalıdır. Artıq bundan sonra iqtidar və müxalifət arasında normal və sivil dialoq mühitinin yaranması mümkündür. Dialoq təklifləri ilk növbədə hakimiyyətdən gəlməlidir. Bu dialoqlar xalqa açıq və şəffaf olmalıdır ki, dialoqun tərəfləri ictimaiyyət qarşısında alnıaçıq olsun. Yəni yersiz ittiham və suçlamalara məruz qalmasın. Ümumiyyətlə, dialoqlar olmamasının özü anormallıqdır. Dünyanın bütün digər dövlətlərində belə dialoqlar mütəmadi olur və ictimaiyyət tərəfindən artıq norma kimi qəbul olunur".

**Partiya sədri fikirlərinə bu cür davam etdi:** "Meydan hərəkatından üzü bəri gələn köhnə müxalifətin siyasi səhnədən getməsi hakimiyyətin müdaxiləsi ilə deyil, təbii yolla baş verməlidir. Ümumiyyətlə, müxalifətin formalaşmasına və fəaliyyətinə hakimiyyət birbaşa və dolayısı ilə müdaxilə etməməlidir. Müxalifət sağlam, təbii rəqabət vasitəsi ilə formalaşmalı, güclənməli və ya siyasi səhnədən silinməlidir. Hesab edirəm ki, bu gün müxalif arenada belə anormallığın və qarışıqlığın yaranma səbəbi iqtidarın bu qanada yersiz və kobud təsirləri sayəsindədir. Mən əminəm ki, hakimiyyət bütün müxalifətə qanunvericiliklə nəzərdə tutulmuş normal fəaliyyət imkanı yaratsa, AĞ Partiya kimi yeni siyasi qüvvələr öz real gücünü göstərə biləcək. Biz sağlam və normal fəaliyyət mühiti istəyirik. Bu baş verərsə sağlam rəqabət kimin səhnədə qalmalı, kimin siyasi səhnədən silinməli olduğunu özü müəyyənləşdirəcək. Biz AĞ partiya olaraq belə bir rəqabətdən qətiyyən qorxumuz yoxdur. Hakimiyyət də unutmamalıdır ki, əgər o yerli və milli müxalifətə fəaliyyət imkanı tanımasa, bu yeri xarici qüvvələrə və güc mərkəzlərinə xidmət edən antimilli qüvvələr tutacaq. Belə hal isə nəinki hakimiyyətin maraqlarına daha çox dövlət maraqlarına uyğun deyil. Hər bir dövlətin milli təhlükəsizlik strategiyasında milli müxalifət anlayışının xüsusi çəkisi və önəmi var. Ən azından qardaş Türkiyədə gördük ki, həlledici məqamda müxalifətin iqtidarla bir araya gələ bilməsi qabiliyyətinə görə dövlətçilik xilas oldu. Bir anlıq düşünsək ki, həmin an milli deyil xarici güc mərkəzlərinə bağlı müxalifət güclü olsaydı, o zaman Türkiyənin taleyi necə olardı. Dövlətçiliyi düşünən hər bir iqtidar milli və güclü müxalifətin mövcudluğunda maraqlı olmalıdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 86 (6975) 21 aprel 2018

**Siyasətə atılanın cinsi olmur. Qadınsan, ya kişi, fərq etməz, siyasətçisən, siyasətdəsənsə, deməli, varsan və ictimai fiqursan. Girişi olub, çıxışı olmayan oyundasan. Bir məqam da olur ki, alət eləyirlər səni. Daha böyük hədəfləri vurmaq üçün silah olursan. Təzyiqə də, tərifə də rast gəlirsən, xəyanətə də uğrayırsan, rəzalət də yaşayırsan. Sonra hamı üzünə gülümsəyir.**



# "Susduqlarım mənim kimliyimi susmayanlara isbat etdi" - Gülər Əhmədova illər sonra elə şeylərdən danışdı ki...

## Sabiq deputat: "Müraciətimdə də bu haqda cənab Prezidentə şəxsən yazacağam"

Rəzaləti yaşadanlar da, səni alət edənlər də. Heç bəlli də olmur ki, günahın nə qədər idi. Ya da elə yaşadıqlarının hamısı qədər idi. Yəni taleyin bu idi. Yenə də susursan, kimin səni hədəf seçdiyini də bilirsən. Bilə-bilə gülümsəməli olursan. Oyunların içindəsən, "mətbəxindəsən" deyə. Bəzən öz mətbəxində "vurulursan". Məqsəd təkcə səni yıxmaq deyil. Hədəfə alan adamlar üçün sən ən xırda fiqursan. Əslində məqsəd daha böyük maraqları və fiqurları hədəfləməkdir. Sadəcə, hədəfdə daha kiçik fiqur görünməlidir ki, mahiyyəti aydın bəlli olmasın oyunların. Bir az belə idi onun situasiyası. Amma qəfil dəyişdi vəziyyət. Əslində qəfil olmadı bəlkə, adamlara qəfil olduğunu göstərdilər. İndi azadlıqda, amma bütün "qalaları" əldən vermiş təsiri bağışlayır. Olsun, əsas odur ki, ayağını yerə basa bildi o boyda siyasi skandalın ardından. Bəzən məəttəl də qalırsan, həmin hadisələrdən, sağlam çıxmağın sirri nədə idi? Doğrudanmı, ayaq üstədir ətrafındakı qalmaqaldan, skandallardan və həbs həyatından sonra keçmiş deputat Gülər Əhmədova?

*(əvvəli ötən sayda)*

***- Edəydiniz, nə mane olurdu ki?***

- Avropa məhkəməsinə hansısa hakimdən şikayət etmirsən axı, dövlətindən şikayət edirsən. Mən dövlətimdən şikayətçi olmaq istəmədim. Əqidəmdən imtina eləyən birinə çevrilmək istəmədim. Həmişə belə düşünmüşəm. Əgər bir Azərbaycan dövlətinin var olması min Gülərin yoxluğundan keçirsə, qoy biz olmayaq. Ya da bir Gülər bəraət alsın deyə, Azərbaycan cavabdeh kimi hansısa beynəlxalq məhkəməyə çəkiləcəksə, səmimi deyirəm, mənə o cür bəraət min il bundan sonra da gərək deyil.

***-Yaxşı bəs susduqlarınız sizə nə verdi?***

- Susduqlarım mənim kimliyimi susmayanlara isbat etdi. Dostlarım da, düşmənlərim də anladılar ki, məni şantajla, hədə-qorxuyla, doğru bildiyim şeydən çəkindirmək olmaz. Kimsəyə şər atmaram, bunu düşmənlər də bildi, dostlar da. Hamı anladı ki, vəzifəyə görə, canıma görə kimisə şərləmərəm, üzə durmaram. Mənim vasitəmlə biriləri ni "vurmaq" idi məqsəd. Vura bilmədilər, çünki mən susdum. O biri dünyanın varlığına inanıram. Əminəm ki, çoxundan rahat və asan verəcəm orda imtahanımı. İstəmirəm kimsə gəlib boğazımdan tutsun ki, mənə şər atırdın.

***- Bəs sizin necə, boğazından tutacaqlarınız çoxdurmu?***

- Şübhəsiz. İnsanlar bizim qarşımıza ya hədiyyə, ya da imtahan olaraq çıxırlar. Mən qarşıma çıxarılanlardan imtahanımı verdim, şükürlər olsun, düşünürəm üzüm qara deyil. Amma məndən imtahan verən adamları hələ çox sınaqlar gözləyir zənnimcə. Bilirsinizmi, vəzifə, pul, rıçaqlar adama kimisə əzəsən deyə verilmir. Bunu mənə şər

### "Üzbəüz gəlsək, Gültəkin Hacıbəyliyə deyəcəklərim var"

atanlar heç düşünmədi. Onlardan həmin vaxtlarda heç şikayət etmədim. Sadəcə, ailə üzvlərimə deyirdim ki, sakit oturun, bir kəlmə də danışmayın. Belə lazım idi. Əsas bu idi ki, mən sağ idim, ölkəmdə idim. O zaman şükür olunacaq yeganə məqam elə bu idi.

***- Həyatınıza təhlükə var idimi?***

- Onda yalnız bir şeyə şükür edirdim, ailəmə toxunmadıqlarına. Dedim axı, bu mənim imtahanım idi, həm də son dərəcə ağır imtahanım. Təhlükə də təbii ki, var idi.

***- Əleyhinizə ifadə verən çoxlu sayda dostlarınız var idi. Partiyadaşlarınız idilər. Sonra sizi sıralarından çıxaranda səs verdilər bir də. İndi söhbət boyu deyirsiniz ki, o vaxt bir zəngi əsirgəyən, bir dəfə yanınıza gəlməyə qorxanlar belə əvvəlki münasibətə qayıdıb. Bu sevindiricidirmi, ağrılıdırmı? Ya da, məsələn, niyə sualını vermisinizmi onlardan hansınasa?***

- Doğrudur. "Niyə" sualını adətən kimisə utandırmaq istəyəndə verərlər. Mən onları heç vaxt utandırmaram. Özləri də heç bu mövzunun üstünə gəlmirlər. Bir-ikisi çalışıb izah eləsin, yayınmışam. Demişəm unut, oldu, keçdi. Qoymamışam özünə bəraət qazandırmaq üçün əyilsin. Məcburiyyətlərini danışsın, çünki hamısını bilirəm, hardasa başa da düşürəm. Onlar başqa cür edə bilməzdilər. Söhbət açılsa deyəcəklərinə qarşı mənim arqumentlərim sərt olar, pis vəziyyətdə qalar.

***- Bəs onlara insan kimi güvən varmı?***

- İnsanlara güvənirəm. İnsan situasiyalara bağlı varlıqdır. Ümid eləyirəm ki, məcbur qalmışdılar. O situasiyada yəqin ki, edilməsi lazım olan, elə elədikləri idi. Qəribə bir şey var, müşahidə edirəm. O hadisələrdən altı il keçib. Baxıram bəzi düşmənlər artıq dostdurlar. Yəni baxıram, vəssalam...

***- Dost-düşmən dediniz, yadıma Gültəkin Hacıyeva düşdü. O da sizə zamanında həmkar idi. Amma indi siyasi düşərgə dəyişib. Əslində əqidə dəyişikliyində qeyri-adi nəsə yoxdur, bu mümkündür. Sadəcə bunun arxasında bir təmənna hikkəsi duranda artıq fərqli düşünməli olursan...***

- İkimiz də qadınıq, onun haqqında danışmaq istəmirəm. Daha doğrusu onun dalıyca danışmaq istəmirəm. Baxmayaraq, həbsdə olanda o dalımca ən çox danışanlardan idi. Mənim ona mesaj yollamaqla işim yoxdur. Üzbəüz gəlsək deyəcəklərim var. Gültəkinlə mənim yaxın dostluğum olmayıb. Detalları bilənlər bilir. Fikirlərimiz həmişə toqquşub. Eyni düşərgədə olsaq da düşmənçilik edə biləcək qədər mübahisələrimiz yaranıb. İndi onu təftiş eləmək istəmirəm, amma istənilən polemikada mütləq ona kim olduğunu xatırladaram.

***- Düzü, mən də istəmirəm iki qadın söhbət edib üçüncü qadını müzakirə etmiş kimi görünək. Sadəcə niyə verdim sualı sizə? Son zamanlar düşərgə dəyişənləri müşahidə edirəm, söhbət siyasi əqidə dəyişikliyindən getmir. Daha çox hikkədən müxalifətçilik edirlər...***

- Bəzi insanlar siyasətə biznes kimi baxır. Düşünürlər harada maraqları təmin olunubsa onlar orada olmalıdırlar.

***- Amma bu fərdi maraqlar deyil axı təkcə, məsələ burasındadır ki, hakimiyyətə gəlmək iddiaları da ifadə olunur. Bu artıq siyasi və ictimai məsələdir yəni...***

- Çox incə bir məqam var. Nadir hadisədir ki, insan şəxsi maraqlarını dövlət maraqlarına qurban versin. Bunu etmək üçün son dərəcə böyük adam olmalısan. Bu da öyrəndiklərinin yox, genetikanın məsələsidir həm də. İndi beləlari azdır. Ona görə hamıdan fədakarlıq gözləməyək.

***- Bizdə nadir olanların dəyəri verilirmi?***

- O dəyəri də verə biləcək kəs özü də nadir adamdır.

***- Onda bu oldu həyatın amansızlığı...***

- Bu, həyatın qanunudur. Biz itirəndən sonra, yeri boş qalanda qədrini bilirik adamların.

***- Sizin yeriniz boş qalıb?***

- Onu deyə bilmərəm. Məncə, bu mənə veriləcək sual deyil.

***- Məhz sizə veriləcək sualdır, çünki söhbətin nədən getdiyini bilirsiniz...***

- Onda belə deyim, bu sualın cavabı məndə qalsın...

***- Mən də bunu "bəli" kimi qəbul edirəm o zaman...***




### "Mənim vasitəmlə biriləri ni "vurmaq" idi məqsəd. Vura bilmədilər, çünki mən susdum"

-(Gülür) Əvəzolunmaz adam yoxdur. Mən işlədiyim dönəmdə nə etmişəmsə vicdanla etmişəm. Düşünürəm qiymətimi zamanında ümummilli liderimiz vermişdi. Bu mənim üçün ən böyük dəyər idi. Ondan böyük nəsə arzulamaq doğru olmaz. Mənim prezident İlham Əliyevə də rəsmi müraciətim olacaq. Ona güvənib ölkədə qaldım. Ona mənimlə bağlı çoxlu yanlış məlumatlar ötürülüb. Çox şükür ki, bu gün həmin məlumatları ötürən qurum artıq yoxdur. Müraciətimdə də bu haqda cənab Prezidentə şəxsən yazacağam. Ümidvaram, bu müraciətdən sonra ədalət bərpa olunacaq. Çünki cənab Prezidentin ədalət və mərhəmətini bu qəbil məsələlərdə dəfələrlə görmüşəm. Əsas olan budur ki, özümü itirilmiş adam saymıram. Həyatda nə yaşamışamsa heç bir halda şanslarımı itirməmişəm. Bir də düşünmürəm ki, hələ bundan sonra şansların yoxdur.

***- Həbs olunanda övladlarınızdan biri, Tamerlan, lap körpə idi. Hətta bəzi söhbətlər var idi ki, guya sizi gecələr ona görə evinizə də gətirirlərmiş gizlin...***

- Təkcə balaca oğluma yox, bütün uşaqlarıma, ailəmə zərər dəydi. Hərəsi öz yaşına uyğun travma aldı. Adamlar tapıldı ki, hətta hər şey aydınlığa çıxandan sonra belə çalışdılar məndən narazı "vurulan" obrazı düzəldib haralarasa təqdim etsinlər. Oğlumun elmi işini əlindən aldılar. Öz biliyi ilə qəbul olduğu aspiranturadan qovdular. İkinci ali təhsil aldığı universitetdən, işindən uzaqlaşdırdılar. Azadlıqda idim, çalışırdılar məni düşmənə çevirsinlər. Başa düşürsünüzmü, əsəblərimlə beləcə oynayırdılar. Yetmədi, yenə ailəmlə oynadılar. Yoldaşımı işindən uzaqlaşdırdılar. Hələ desəniz bu gün də oynamağa davam edirlər. Amma hiss edirəm ki, artıq xeyli yorulublar. Görürlər ki, alınmır. Mən düşmən deyiləm - nə dövlətə, nə dövlətçiliyə. İnşallah, bu qayda ilə də davam edəcəyəm. Məndən düşmən alınmayacaq. Sadəcə övladlarımla incidildim. Qaldı həbsdən evə gətirilməyimə. Nə danışırsınız? Əlacları olsaydı, nəfəs almağa qoymazdılar, nəinki evimə gətiriblər. Qaldı ən balaca oğluma... bu lap dəhşətli idi. Məni o balaca uşağın ad günündə həbs etdilər. Bu səviyyədə qəddarlıq və soyuqqanlılığa hələ də təəccüb eləyirəm. İnana bilmirəm ki, bunu mənə yaşadıblar. Ağlım kəsmir ki, bunu adam adama yaşadar.

***QEYD:*** *Kövrəlir. Bu artıq həbsdə qalan, siyasi iddialı, siyasi karyerası olan adam deyildi. Qarşımdakı Gülər Əhmədova yox, eləcə Gülər idi. Balasına yaşadığı acını yaşamamaq üçün hər şeydən keçməyə hazır olan ana. Yəni yer üzünə təyinatı nə idisə, bu qadın balasından danışanda məhz o idi. Bu anın səmimiyyəti isə bir başqa təəssürat yaşadır adama. Yəni anasansa iddialı qadın, ağıllı siyasətçi olmağın da ikinci dərəcəli məsələdir. Nədənsə o an mənə elə gəldi ki, etiraf etməsə belə, o, hər gün balasından ona keçirə bilmədiyi doğum günü üçün üzr istəyir. Çox uzun pauzadan sonra davam edir.*

- ...Tort hazırlanıb, şamlar almışam, plov dəmlənib, hamı Tamerlanın doğum günün təbrik edəcək. Hamı deyəndə ailə yaxınlarımız. Məni çağırdılar. Həbs edəcəklərini dedilər. Onlara dedim, sabah həbs eləyin. Bu gün oğlumun ad günüdür. Həm də uşaqdır, çox balacadır. Belə gündə anası ilə bağlı ağır xatirəsi olmasın. Sonra pis olar, beynində ilişib qalar, psixologiyasına təsir edər.

***- Neçə yaşı olurdu?***

- Səkkiz. Xahiş elədim, heç olmasa qoyun gedim tortunu kəsim, plovunu çəkim, təbrik edək, yerinə salım, gəlin ondan sonra aparın. Ona da icazə vermədilər.

***QEYD:*** *Arada mənə də irad bildirir. Elə bil o gündür və indi kimsə girəcək qapıdan: Sən buralara niyə gəldin axı? Bu mövzunu yadıma heç salmaq istəmirdim... Və təkrar davam edir. Həm də artıq titrəyən səslə. Mən də dinləyirəm.*

- Məni bir şamı yandırmağa, bir tortu kəsməyə, bir qazanın ağzını açmağa da qoymadılar. Birmənalı "yox ki, yox" dedilər. On üç fevral, həm oğlumun ad günüdür, həm də mənim həbs edildiyim gün. Hər il on üç fevralda mən ona ad günü keçirmək istəyirəm, o israr eləyir ki, istəmirəm. Hər dəfə də xahiş eləyir, doğum gününü dəyişdirim. Özü də qəribə deyir: Gedək ad günümü dəyişdir. Elə bilirəm uşaq istəyir ki, təzədən dünyaya gəlsin, ümumiyyətlə, onun təqvimində daha on üç fevral olmasın, yaddaşında o günlə bağlı nəsə qalmasın. Bu çox ağırdır, hələ də ağırdır. Balaca bir uşaq təqvimindən öz doğum gününü silmək arzusundadır. Bunu Allah adama bağışlamaz.

***- Dəyişəcəksinizmi?***

- Bilmirəm. Bildiyim bir şey var, bu dəqiqdir. Bir məsum körpənin ad günündən imtina eləməsinə səbəb olanlar məni keç, Allah qarşısında fəlakətlə imtahan verəcək. Heç zaman da xoşbəxt olmayacaqlar.

***- Siz özünüz necə, xoşbəxtsinizmi?***

- İstənilən vaxt ölkədən də tamamilə gedə bilərdim. Qollarını açıb qəbul edən qüvvələr də olardı məni, amma onda mən indiki Gülər olmazdım. Burda doğulub burda kimsə olmuşam və burda da torpağa gedəcəm. Qaldı nə qədər xoşbəxtəm, məncə hər şey yaxşıdır. İstədiyim budur, hamı bilsin, nə olur olsun, dövlətdən, millətdən incimək olmaz. İnsanın başına çox şey gələr. İnsan gərək hər başına gələnə görə kişiliyini və ləyaqətini itirməsin. Məncə mən, itirmədim. Azərbaycanlıların arasında bir nəfər də olsa düşmənim yoxdur. Mənə pislik edənlərə də dua edirəm. Bəlkə kimsə bunu səmimi qəbul etməz, amma ciddidən belədir. Qəzəbim yoxdur onlara. Qəzəbin, nifrətin və paxıllığın sonu peşmançılıqdır. Mən kiməsə görə peşman olmaq istəmirəm. Bunu cahillər anlamaz...

*(davamı səhifə 10-da)*

YENİ MÜSAVAT
N 86 (6975) 21 aprel 2018



# Uşaq oğurluğunun təbliği

Zamin HACI
zaminhaci@gmail.com

**"Fikrimi verməm əbəs siz kimi nadanlara,**
**Sövq edəsiz oğlumu bir para hədyanlara,**
**Çünki xəyanətçisiz cümlə müsəlmanlara,**
**Mənzilinizdir səqər, oxutmuram, əl çəkin!**
**Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!"**
*(Sabir. Səqər - islam cəhənnəmində bir mərtəbədir - Z.H.)*

**Yaxın zamanlarda Azərbaycanda uşaq oğurluğu cinayətləri çoxalsa bunun günahkarlarından biri də Təhsil Nazirliyi olacaqdır. İzah edim, özünüz görün.**

3-cü siniflər üçün "Azərbaycan dili" adlı bir dərslik var. Müəllifləri Rafiq İsmayılov adlı şəxs başda olmaqla 4 nəfərdir. Təhsil Nazirliyi 2010-cu ildə bu dərsliyi təsdiq etmişdir, yəni, hazırda bununla oxuyan uşaqların azı 8 nəsli bizim canımıza daraşmağa hazırdır. Mən bu dərsliyi şəxsi səbəblərdən (üzr istəyirəm, uşağım üçüncüyə gedir - üzrxahlığı el adətinə görə elədim, çünki bizdə kimsə arvad-uşağından danışanda mütləq üzr istəməlidir, çünki bu, ayıb şeydir, biz olduqca cəmiyyətsevər insanlarıq) hərdən açıb oxumağa məcbur oluram. Hər dəfə də bir peşmançılıq yaşayıram, çox zaman heç bunu yazmıram, deyirəm, cəhənnəm olsunlar, düzəlmişdi hər yarağımız, qalmışdı saqqal darağımız və sairə. Ancaq bu dəfə dözmədim, çünki balaca uşaqlara aşkar şəkildə cinayətkarlığın təbliği faktına rast gəlmişəm.

Uzun sözün qısası, açırıq bu kitabın 180-ci səhifəsini. Burada "Tacir və dostu" adlı qısa nağıl verilmişdir, özü də bunun məqsədi guya, Allah heç qoymasa, uşaqlarda ədalət, xeyirxahlıq, düzgünlük hissləri aşılamaqdır. Başlığın altında bunun "Kəlilə və Dimnə" kitabından götürüldüyü qeydi vardır, nə dərəcədə doğrudur, deyə bilmərəm. O cümlədən, indiki zəmanədə uşaqları belənçik geridəqalmış Şərq nəsihətləri, çürük fəlsəfələr ilə tərbiyə eləmək nə dərəcədə doğrudur, heç bunun da müzakirəsini açmıram. Şəxsən mənə qalsa uşaqlara Şərq nağıllarından yalnız "Min bir gecə"ni tədris edərəm, o da müəyyən yaşdan sonra. Qalanları cəfəngiyat şeylərdir. Qabusnamə, Kəlilə-Dimnə, nə bilim, Əxlaqi-Nasiri belə getdi, Gülüstan elə gəldi, Bustan ordan çıxdı... Min ildir qoca Şərq elə bu tip rəvayətlərin əsiri olaraq çürüməkdədir. Hamısı millətin başını tovlamaq üçün nağıllardır. ("Müzakirə açmıram" yazdım, ancaq deyəsən açdım. Üzrlü sayın bu dəfə də).

Bu "Tacir və dostu" əhvalatının qısa məzmunu belədir ki, bir tacir çoxlu dəmiri dostuna saxlamağa verir, dostu isə dəmirin dalına keçir - türkün məsəli. Tacir səfərdən qayıdıb dəmiri istəyəndə isə dostu deyir, malı siçanlar yedi. Bu da ələcsiz qalıb sağollaşır, deyir, sabah yenə gələcəm. Yolüstü isə, diqqət edin, əsas dəhşət burdadır: dostunun balaca oğlunu özüylə aparır! Yaxşısı budur bu hissəni dərslikdən olduğu kimi köçürüm, çünki belə yaramazlığı təsvir eləmək çətindir. Sitat: "Tacir evdən çıxanda yolda dostunun oğluna rast gəlir. Uşağı aparıb etibarlı bir yerdə gizlədir. Səhərisi yenə də dostunun evinə gəlir. Tacir dostunun bərk əl-ayağa düşdüyünü görüb soruşur ki, nə olub? Dostu deyir: - Uşaq dünəndən itib.

Tacir deyir: - Dünən mən sizdən çıxanda qaraquş bir oğlan uşağını caynağında aparırdı.

Tacirin dostu deyir: - Heç qaraquş o boyda uşağı apara bilər? Bu boyda yalan olar?

Tacir deyir: - Siçanları dəmir yeyən bir ölkədə qaraquşlar uşağı apara bilər.

Tacir uşağı gizlətdiyi yerdən çıxarıb gətirir. Dostu tutduğu işdən peşman olub dəmirin pulunu verir". Sitatın sonu.

İndi özünüz qiymətləndirin. Hansısa dəmirin mənimsənilməsi əvəzinə uşağı oğurlayıblar. Bir gün bu bədbəxt uşaq hardasa qorxu altında qalıbdır. Ki, "Rafiq İsmayılov və Ko" 3-cü siniflər üçün dərslik qayıracaqdır. Burada hansı mənəvi, əxlaqi keyfiyyətlər tədris olunur? Ədalətsizliyə, pisliyə cavab verməyin vacibliyi öyrədilirsə, əla, mən da buna razı. Ancaq hansı idiot deyə bilər ki, dəmir əvəzinə oğrunun uşağını basıb aparasan və bu, ədalətin bərpasıdır? Özü də tacir uşaq oğurluğunu artıq söhbət zamanı beynində planlaşdırır ("sabah gələcəyəm" vədini yada salın). Yəni, bu, nəsə ekspromt, qəfil yaranan cinayət deyildir.

Əlbəttə, başa düşürəm, xaricdə kiminsə cükküldəməyinə görə onun bacısını tutub idarəyə aparmağın qanuni sayıldığı ərazinin sakinləriyik. Ancaq hər halda üçüncü sinif uşağına adam oğurluğunu təbliğ eləmək uğursuz pedaqogikadır. Bunun axırı yaxşı olmayacaqdır.

**İndi söz ələqədar təşkilatlarındır - dəmir-dümürdən, uşaq-muşaqdan nəyiniz var?**



# Ermənistanda məxməri inqilab başlayır - müxalifətdən sərt qərar

**Ermənistanda Sərkisyan rejiminə qarşı kütləvi etirazlar davam edir. Diqqəti çəkən odur ki, hərəkata getdikcə daha çox sayda gənc qoşulur. Gənclər isə istənilən ölkədə inqilabi dəyişikliklərin lokomotivi sayılır. Bu üzdən işğalçı ölkənin hakim dairələrində artan narazılıq anlaşılandır. Etirazları güc yolu ilə yatırtmaq üçün addımlar atılacağı da istisna deyil.**

## İrəvanda siyasi ehtiraslar güclənir; Qərbyönlü hərəkat rejimi inqilabla hədələdi; Serj Sərkisyanı ağır dilemma gözləyir; rusiyalı analitiklərdən erməniləri təlaşlandıran proqnoz və açıqlamalar...

Yazı hazırlanarkən xəbər gəldi ki, nümayişçilərin lideri, müxalifətçi deputat Nikol Paşinyan bəyan edib ki, artıq məxməri inqilaba başlayır və ölkədə inqilab komitələri yaradılacaq. Ancaq məsələ ondadır ki, Paşinyanın başçılıq elədiyi hərəkat məğlub edilsə belə, bu, artıq Sərkisyana dərs olacaq, onun yeni postda legitimliyi daim şübhə altında qalacaq. Eyni zamanda son aksiyalar, vətəndaş itaətsizliyi gələcəkdə daha böyük etirazlar üçün güclü zəmin, "baş məşq" rolu oynaya bilər.

Həm də o səbəbdən ki, qarşıdakı illərdə ölkənin əsas şəxsi kimi Serj Sərkisyan nəhayət ki, erməni xalqı qarşısında duran əsas problemi - Dağlıq Qarabağ məsələsini və bu məsələnin doğurduğu irili-xırdalı digər acıları (izolyasiya rejimi, kasıbçılıq, işsizlik və ağır güzəran, xaricə kütləvi köç və s.) çözməlidir. Bu isə Azərbaycanla dil tapmadan mümkünsüzdür.

Dil tapmaq isə güzəştlərdən keçir ki, bu da Sərkisyan rejiminə baha oturacaq. Ötə yandan, konfliktin uzanması müharibə deməkdir ki, bu, ümumiyyətlə, hakim rejim üçün özünü qəsd anlamına gəlir. Habelə, Rusiyaya xəyanət edib Qərbdə nicat axtarmaq Qarabağ klanına böyük fəlakət vədi edir. Bir sözlə, Sərksyanı olduqca ağır dilemma gözləyir.

*****

**Ermənistandakı son hadisələrə həmçinin, Qərb-Rusiya qarşıdurması kontekstində baxmaq lazım gəlir.** Elə Nikol Paşinyanın özü və təmsil elədiyi qurum qərbyönümlü və eks-prezident Levon Ter-Petrosyana yaxın sayılır. Siyasi müşahidəçilərə görə, Ermənistanda bir həftədir davam edən dinc etirazların motivində də Sərkisyanın baş nazirliyinə mane olmaqdan daha çox, ölkəni Rusiyanın vassallığından çıxarmaq hədəfi dayanır. Sözsüz ki, rəsmi Moskva bu kimi plan və tələblərin fərqindədir.

Əlbəttə ki, Qərb çox istəyərdi ki, Rusiyanın Ermənistanda ictimai dayaqları sarsılsın. Bu yöndə Avropa və ABŞ texnoloqları və təlimatçıları şübhəsiz ki, işğalçı ölkədə altdan-altdan, sakitcə işləyirlər. Yəni Ermənistan indi - xüsusən də İrəvan Avropa Birliyi ilə tərəfdaşlıq sazişi imzaladıqdan sonra heç vaxt olmadığı qədər Rusiya-Qərb rəqabət meydanına çevrilib.

Doğrudur, Qərb faktiki, Rusiyanın hərbi forpostu olan, ərazisində iki rus bazası saxlayan, xarici sərhədlərini, hava məkanını belə ruslara etibar edən Ermənistana nüfuz etməyin qəliz olduğunu anlayır. Bu üzdən də qeyri-hərbi, yəni təbliğati və əks-təbliğati rıçaqları işə salmağa meyl edir, vətəndaş institutları və siyasi kəsimə stavka edir. ABŞ Dövlət Departamentinin Ermənistandakı son aksiyalara faktiki, dəstək ifadə edən açıqlaması da diqqət çəkməyə bilmir...

*****

Bəs Ermənistan uğrunda qızışan Qərb (ABŞ)-Rusiya davası, hakim rejimin "iki stulda oturmaq" siyasəti Ermənistana, Dağlıq Qarabağ məsələsinə nə vəd edir? Təhlilçilərin bu xüsusda yanaşmaları və proqnozları maraqlı sayıla bilər.

"Nikol Paşinyan qərbyönlüdür, amma Qərb hələlik onu dəstəkləmir". Bu sözləri Axar.az-a açıqlamasında rusiyalı tanınmış politoloq Qriqori Trofimçuk deyib. "Paşinyan qərbyönlü, daha dəqiq desək, liberal müxalifətin nümayəndəsidir. Lakin bu, o demək deyil ki, Paşinyana birbaşa ödənişi Vaşinqton edir. Aydın olan əsas məsələ erməni müxalifətinin Rusiyanın əleyhinə olaraq Avropa Birliyi və ABŞ-la görüşə getməsidir. Bu səbəbə görə, erməni müxalifətinin daxilində Moskvanın ünvanına və ya Rusiyanın aktiv olduğu bütün inteqrasiya bloklarına qarşı etirazlar daha yüksək səslə ortaya çıxır".

**Lakin politoloq bütün baş verənlərə görə Qərbi günahlandırmağın da tərəfdarı deyil**: "Buna görə hər şeydən əvvəl bizim öz məmurlarımızdan doğru edib-etmədiklərini soruşmaq lazımdır. Bu, Ermənistanın hakim orqanlarına da aiddir".

Trofimçuk ardınca bildirib ki, Ermənistan müxalifəti hər zaman narahat olub və "inqilab" sözünü tez-tez səsləndirib: "Məsələn, bir müddət əvvəl də baş tutan aksiyaları bəziləri "Elektromaydan" adlandıraraq, Ukraynadakı Maydana bənzər prosesləri başlatmaq istəmişdilər. Bu etirazlar mövcud hakimiyyəti devirə bilməz. Belə ki, heç bir məxməri inqilab variantı erməni mentalitetinin özü tərəfindən qəbul olunmur. Bunun üçün 1999-cu ildə ölkə parlamentinin güllələnməsini xatırlamaq kifayətdir. Vaşinqton çalışır ki, geosiyasi qeyri-stabillikdən istifadə etsin, Qarabağ problemi, Gümrüdəki rus bazası və digər faktorları nəzərə alıb, destabilizasiyanı Cənubi Qafqaza yenidən yönəltmək üçün lazımi zamanı gözləsin. Bunun üçün onlar Ermənistan daxilində öz mövqelərini gizlətməyən müxtəlif fərqli qeyri-hökumət, ictimai təşkilatlardan istifadə etməyə çalışacaqlar".

Bununla belə, ekspert deyib ki, Paşinyan Sərkisyanın adamı olmasa da, Serj Sərkisyana sərfəlidir. "Çünki müxalifətin aktiv etirazları rəsmi İrəvana Qərbə ölkədə demokratik proseslərin olması ilə bağlı misallar çəkməyə imkan yaradır. Hələlik erməni hakimiyyətini diktator metodlarından istifadə də günahlandırmaq çətindir. Bu isə hələlik belədir", - deyə o bildirib.

*****

Rusiyalı digər tanınmış analitik və tarixçi alim Oleq Kuznetsovun minval.az saytına müsahibəsində söylədiyi bəzi fikirləri də burada xatırlatmağın yeri var. Sərkisyanın günün birində Putinin səbrini tükədəcəyini ehtimal edən politoloq demişdi ki, Ermənistan artıq Kremlin təsirindən çıxaraq Qərbə üz tutub və bir, uzağı iki ilə bu xəyanət baş verəcək. Bu müddətdə Türkiyə-Rusiya alyansının da güclənəcəyini, o sırada hərbi sahədə Moskva-Ankara əməkdaşlığının dərinləşəcəyinə diqqət yönəldən analitik Kremlin Ermənistanı cəzalandırmaq üçün Azərbaycanın Qarabağı və digər işğal altındakı əraziləri güc yolu ilə azad eləməsinə göz yuma biləcəyini söyləmişdi - təbii ki, əgər ona qədər Ermənistan rəhbərliyi ağla gəlməsə.

Öz növbəsində Amerika-Azərbaycan Sülhə Dəstək Fondunun baş eksperti Aleksey Sinitsin hesab edir ki, Rusiyanın birmənalı şəkildə Ermənistanın arxasında durduğu keçmiş dönəmlər daha təkrarlanmayacaq: "Ermənistan NATO ilə, Qərblə oyun oynamaqda nə qədər uzağa getsə də, Qərb Qarabağ konfliktinin Ermənistanın xeyrinı həll edə bilməyəcək və Rusiya güc qütbü kimi bunun qarant olacaq". Onun qənaətincə, Azərbaycanın 2016-cı ilin aprelindəki kimi 23-blits-hücumu kifayətdir ki, Ermənistan bir dövlət olaraq dağılıb getsin, erməni cəmiyyəti 2016-cı ildəkindən də dərin depressiya vəziyyətinə düşsün.

Yada salaq ki, "4 günlük" aprel müharibəsi zamanı Ermənistanın hərbi rəhbərliyi (müdafiə naziri Seyran Ohanyan və başqa generallar) dərhal istefaya getmişdi. Bəzi generallar isə hələ də həbsdədir...

***P.S.** Qəzet çapa gedərkən Ermənistanda ümumxalq etirazları davam edirdi.*

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# "Skripal işi"ndə son gəlişmə - Rusiya dirənib

## Elxan Şahinoğlu: "Skripal və Litvinenko cinayətləri illər sonra da müzakirə predmeti olacaq"

**Rusiya və İngiltərə arasında bir aydan çoxdur davam edən "Skripal olayı" səngimək bilmir. Rusiya ölkədəki 18 mart prezident seçkiləri öncəsi belə bir hadisənin Böyük Britaniya başda olmaqla, Qərb ölkələri tərəfindən qəsdən təşkil olunduğunu iddia edir. Kreml hesab edir ki, Rusiyanı daha da küncə sıxmaq və bu yolla seçkilərə təsir etmək üçün Sergey Skripal və qızı Yulyanı zəhərləyiblər.**

"Qərb ölkələrini "Skripal işi" üzrə həqiqət maraqlandırmır". Bunu **Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya** deyib. "Bəzi həmkarlarımı dinləyəndə, mənə elə gəlir ki, "Alisa artıq möcüzələr adasında yox, uydurulmuş ölkədədir". Bizim Qərb tərəfdaşlarımızı həqiqət maraqlandırmır və həm də təkcə bu məsələdə deyil", - deyə o BMT Təhlükəsizlik Şurasının iclasında deyib. "Rus dilində buna "sən onlara Foma, onlarsa sənə Yeryoma haqqında danışırlar", - deyə, diplomat əlavə edib.

Göründüyü kimi, Rusiya ittihamların heç birini qəbul etmir. Əksinə, Kreml Skripal cinayəti ilə bağlı aparılan istintaqda Rusiya tərəfin də iştirakını tələb edir. Lakin onların tələbi keçməyib. Burada Rusiyanı müdafiə edən ölkələrdən biri də Azərbaycan olub. Rəsmi Bakının mövqeyi ciddi müzakirə doğurmaqla yanaşı, Rusiya tərəfindən rəğbətlə qarşılanıb.

"Şadıq ki, Azərbaycanda Skripal məsələsi ilə bağlı obyektiv baxış var". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu keçirdiyi brifinqdə **Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova** bildirib. "Sizin dediyiniz mövqe, təxribat haqqında sözlər tamamilə Rusiyanın mövqeyini əks etdirir. Biz çox şadıq ki, məsələlərə müasir dünyada, o cümlədən Azərbaycanda obyektiv baxış mövcuddur", - deyə, Zaxarova jurnalistin Azərbaycandan olan deputatların Skripal məsələsi ilə əlaqədar mövqeyinə dair sualına cavabında bildirib.



**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** isə Rusiyanın digər ölkələrdə adam öldürmək təcrübəsinin olduğunu deyir: "Rusiya Skripalın müəmmalı zəhərlənməsi ilə bağlı ona qarşı yönələn ittihamlardan yaxa qurtarmaq üçün əks-hücuma keçib. Rusiyalı rəsmilər deyirlər ki, bu və bundan əvvəlki Litvinenkonun qətlini də elə Böyük Britaniyanın kəşfiyyat orqanları təşkil edib. Hətta Moskva daha uzağa gedərək Londonda yaşamış oliqarx Boris Berezovskinin qətlini də Böyük Britaniyanın kəşfiyyatının təşkil etdiyini iddia edib. Guya Berezovski Litvinenkonun qətlini sifariş etdikdən sonra oyundan çıxmaq və Rusiyaya geri qayıtmaq istəyib, bunu bilən Böyük Britaniyanın kəşfiyyat xidməti onu öldürüb. Nəsə bu nağıla bənzəyir. Moskvanı anlamaq olar, çox sərt ittihamlarla üz-üzədir və bu ittihamlardan qurtulmaq üçün qarşılıqlı ittihamlar səsləndirir. Skripal və Litvinenko cinayətləri illər sonra da müzakirə predmeti olacaq. Çünki bunlar elə cinayətlərdəndir ki, illər sonra kimin həyata keçirdiyi bəlli olmayacaq, London Moskvanı, Moskva da Londonu ittiham edəcək. Məsələ burasındadır ki, Qərb ölkələri bu qovğada Moskvaya yox, Londona inanır. Çünki Rusiyanın başqa ölkələrdə insanları öldürmək kimi təcrübəsi var. Məsələn, son 15 ildə İstanbulda keçmiş çeçen döyüşçülərin mütləq əksəriyyəti rus kəşfiyyatçıları tərəfindən qətlə yetirilib. Türkiyə bunu Rusiyaya qarşı ittiham kimi irəli sürməsə də, qətllərin kimin həyata keçirdiyi bəllidir. Və ya Qətərdə keçmiş çeçen liderlərdən Zəlimxan Yandarbiyevin maşını partladıldı. Bu qətlin arxasında da Rusiya xəfiyyəsi çıxdı. Mariya Zaxarovanın Skripal olayına görə Azərbaycana minnətdar olması anlaşılan deyil. Əlbəttə, bəzi millət vəkillərimiz yanlış olaraq bu məsələdə Rusiyanın mövqeyini dəstəklədilər. Halbuki, bu məsələnin bizə dəxli yoxdur. Ancaq böyük ölçüdə rəsmi Bakı bu məsələyə qarışmır. Azərbaycan Xarici İşlər Nazirliyinin də Skripal olayı ilə bağlı xüsusi açıqlaması yoxdur. Ancaq görünür bəzi deputatlarımız rusiyapərəstliyini biruzə verib, Mariya Zaxarova da məhz onlara minnətdardır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Ermənistandakı etirazlarla bağlı ilginc qiymətləndirmə

## Elçin Mirzəbəyli: "Mən bu aksiyaları daha çox batmaqda olan gəmidən xilas olmaq cəhdi kimi qiymətləndirərdim"

**"Serj Sərkisyanın cəmiyyətdə özünə qarşı nifrətin nə qədər böyük olduğunu bildiyi halda ölkədə kütləvi aksiyaların keçirilməsini stimullaşdırması və hətta idarə etməsi barədə deyilənlər inandırıcı deyil".**



**Politoloq Elçin Mirzəbəyli** bu fikirləri "Yeni Müsavat"a açıqlaması zamanı söylədi. İrəvan şəhərində aprelin 13-dən başlayaraq keçirilən fasiləsiz aksiyaların arxasında hakimiyyətin dayandığı barədə fikirləri qəbul etməyən siyasi şərhçi hesa edir ki, bu, daha çox Serj Sərkisyan tərəfdarlarının aksiyaları gözdən salmaq üçün ortaya atdığı tezislərə bənzəyir: "Burada söhbət "Çıxış" fraksiyasının rəhbəri Nikol Paşinyanın nə dərəcədə real müxalif mövqedə dayanmasından da getmir. Aksiyalarla bağlı hətta "Çıxış" fraksiyasını təşkil edən partiyalar arasında da fikir ayrılığı var. Digər tərəfdən, aksiyalar təkcə paytaxt İrəvanda keçirilmir. Rusiyanın hərbi bazasının yerləşdiyi Gümrü də kütləvi aksiyaların gündən-günə genişləndiyi bölgələrdən biridir. Sərkisyan əleyhinə aksiyalar ABŞ-da, Fransada və hətta Moskvada da keçirilir. Erməni diasporunun güclü olduğu Fransanın Marsel, ABŞ-ın Los-Anceles bölgələrində Sərkisyan əleyhinə aksiyaların kütləviliyi rəsmi İrəvanı ciddi şəkildə narahat edən məsələdir. Onu da qeyd edim ki, Marseldə aksiya iştirakçıları Ermənistan konsulluğuna daxil olaraq Serjin şəkillərini ayaq altına atıblar. Fransa və ABŞ-dakı erməni diaspori ölkə rəsmilərinə müraciət edərək Sərkisyana qarşı sanksiyaların tətbiq olunmasını tələb ediblər".

E.Mirzəbəyli bir məqama xüsusi diqqət çəkməyi vacib sayır: "Ermənistanın tarixində ilk dəfədir ki, diasporla siyasi hakimiyyət arasındakı ziddiyyətlər özünü bu qədər qabarıq şəkildə göstərir. Digər tərəfdən, aksiyalarda iştirak edənlərin sayı da artmaqdadır. Ötən gün İrəvandakı Respublika meydanında keçirilən mitinqdə 35 min adam iştirak edib. Bu, Ermənistan üçün böyük rəqəmdir. Eyni zamanda "Mənim addımım" adlı yürüşlər də Ermənistanın müxtəlif bölgələrində, o cümlədən paytaxt İrəvanda davam edir. Nəzərə almaq lazımdır ki, keçirilən aksiyalara tanınmış mədəniyyət və incəsənət adamları da açıq şəkildə dəstə verirlər".

**Politoloq bildirdi ki, aksiyalarda Rusiya əleyhinə şüarlar səsləndirilməsə də, Moskvanın yaratdığı hərbi-siyasi, iqtisadi ittifaqların sərt tənqid olunması da diqqətdən qaçmamalıdır**: "Mən bu aksiyaları daha çox batmaqda olan gəmidən xilas olmaq cəhdi kimi qiymətləndirərdim. Bu aksiyalar ermənilərin özünüqoruma instiktindən doğub. Əgər etirazlar daha da ciddi şəkil alarsa, o zaman Sərkisyanın həlak neytrallaşdırılığı "İrəvan" qrupu da hərəkətə gələ bilər".

❑ **Cavid TURAN, "Yeni Müsavat"**




# Neft Fondunun Rusiyaya yönəlik sərmayə siyasəti

## Ekspert: "Bu siyasəti dayandırmaq, əldə olunan dvidentləri daha perspektivli sahələrə yatırmaq lazımdır"

**Şimal qonşumuz olan Rusiyada yerli valyutanın dəyər itirməsi bir çox istiqamətlərdə Azərbaycan üçün təsirsiz ötüşmür. Bu istiqamətlər arasında Dövlət Neft Fondunun Rusiyaya yatırdığı sərmayələr mühüm yer tutur. Belə ki, 2013-cü ildən etibarən Neft Fondu Rusiyanın böyük banklarından olan VTB-nin səhmdarına çevrilib. Fond bankın 500 milyon dollardan yuxarı dəyərində səhminə malikdir. Bundan əlavə, Neft Fondu 133 milyon dollara Moskva şəhərində "Tverskaya 16" ünvanında yerləşən "Qalereya Aktyor" ofis-ticarət mərkəzini əldə edib. Rusiya rublunun dəyərsizləşməsi Fondu nəinki bu yatırımlardan əldə olunası gəlirlərdən məhrum edir, hətta zərərlə üzləşməsinə səbəb olur.**

**İqtisadçı-ekspert Samir Əliyev**in dediyinə görə, Neft Fondunun investisiya siyasəti hər zaman diqqət mərkəzində olur: "Xüsusilə Rusiya və son zamanlar Türkiyəyə sərmayələr yüksək risk kateqoriyasına daxil edilən sərmayələrdir. Neft Fondu VTB-də 3 faizə yaxın paya malikdir. Eyni zamanda Moskvada daşınmaz əmlaka malikdir. Bank VTB dövlət bankı olduğundan ABŞ-ın sanksiyalarının əhatə dairəsinə düşür ki, bu da onun fəaliyyətinə mənfi təsir göstərir. Bu mənfi təsirin isə getdikcə daha da artacağı gözlənilir. Neft Fondu VTB-nin səhmlərini alanda təxminən 500 milyon dollar sərf etmişdi. İndi onları satmaq istəsə, qiymət təxminən 400 milyon dollardan bir qədər çox olacaq. Yəni Neft Fondu bu sərmayədən təxminən 90 milyon dollar itirib".

**Daşınmaz əmlaka gəlincə, Neft Fondunun ümumilikdə bu yatırımlardan əldə olunan gəliri birinci rübdə təxminən 300 milyon dollar təşkil edib:** "Bu zaman açıqlanmır ki, hansı ölkədəki əmlakdan nə qədər gəlir əldə olunub. Lakin reallıq budur ki, Rusiyada daşınmaz əmlakın dəyərdən düşməsi prosesi gedir. Sanksiyaların təsiri artdıqca bu proses də güclənəcək. Eyni zamanda nəzərə alaq ki, Rusiyadan kənara kapital axını var və onun getdikcə sürətlənməsi proqnozlaşdırılır. Hər bir halda, Neft Fondu Rusiyadakı aktivlərinə münasibətdə siyasəti dəyişməlidir".

Ekspert hesab edir ki, Neft Fondunun Rusiyaya yatırımları iqtisadi əsaslardan daha çox siyasi səbəblərə bağlıdır: "Burada iqtisadi dvident əldə olunması prinsipindən yanaşma yoxdur. Reallıqda belə olmalıdır ki, Neft Fondu investisiya qoyuluşu siyasətində Azərbaycan iqtisadiyyatına yaxın olmayan ölkələrə üstünlük verməlidir. Vəsaitin yerləşdirilməsində məqsəd odur ki, ölkə böhrana düşdüyü vaxtlarda Neft Fondunun vəsaitlərindən istifadə edə bilsin - necə ki, istifadə etdi. Rusiyada da bizimkinə oxşar iqtisadiyyatdır. Sabah eyni iqtisadi problemlərlə üzləşə bilərik".

**S.Əlievin sözlərinə görə, Azərbaycan tədricən Rusiyadakı aktivlərdən imtina etməlidir:** "Düzdür, bu gün dünya fond birjalarında vəziyyət elədir ki, gəlir əldə etmək çox çətindir. Lakin bu bizə əsas vermir ki, yüksək riskli iqtisadiyyatlara yatırım edib vəsaitlərimizi itirmək riski ilə üzləşək. Məsələn, birinci rübdə Rusiya rublu 0,6 faiz möhkəmlənib. Lakin təkcə aprel ayının ötən dövründə 3 faizədək dəyərsizləşib. Bu valyutanın perspektivi uğurlu görünmür. Bu baxımdan, Rusiyaya vəsait yatırmaq siyasətini dayandırmaq lazımdır. Fondun açıqladığı məlumatlardan aydın olur ki, VTB-dən əldə etdiyi dvidentləri yenidən rubl formasında bankın səhmlərinə yatırır. Bu siyasəti dayandırmaq, əldə olunan dvidentləri daha perspektivli sahələrə yatırmaq lazımdır".

❑ **DÜNYA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 86 (6975) 21 aprel 2018



# “Məni yanlış anlamışdılar, artıq gerçəklər üzə çıxır”

## Gülər Əhmədova: “O boyda təkəbbür yiyəsi deyiləm, gözləyəm kimsə məndən üzr istəsin”

*(əvvəli səhifə 7-də)*

**- İndi nəylə məşğulsunuz. Sosial mediada aktivsiniz, bunu bilirik. Eyni zamanda bəzən yazdığınız statuslar xəbərə də çevrilir, ara-sıra efirlərdə görünürsünüz. Bu hələ sosial-siyasi statusunuzun tam olaraq itməməsinin göstəricisidir. Bir də adama elə gəlir, itirililənlərin yenidən əldə olunması cəhd edilir...**

- Mən heç yana getməmişdim, heç yana da qayıtmıram. Durduğum yerdəyəm. Sadəcə, məni yanlış anlamışdılar. Mənə belə gəlir ki, artıq gerçəklər üzə çıxır. Ona görə siz də düşünürsünüz, yavaş-yavaş görünürəm. Bir də mən o boyda təkəbbür yiyəsi deyiləm, gözləyəm kimsə məndən üzr filan istəsin.

**- Söhbət ondan getmir sizdən kimsə üzr istəsin, ya da əksinə, istəməsin. Sadəcə bir statusunuz var idi mərhələləli qazanmışdınız, birdən itirdiniz. İnanılası deyil ki, yenidən qazanaq arzunuz yoxdur...**

- Yenə də deyirəm və səmimiyyətimə inanın. Mənim heç nəyim alınmayıb. Bu gün də həbsdən əvvəlki kimi, adamlar arasında hörmətlə qarşılanıram xeyirdə də, şərdə də. Sadəcə, sadalanan varidatım yox idi.

**- Həcc ziyarətinə getdiyiniz dönəmdə daha çox hiss olundu, sosial şəbəkədə hələ də söyənlər var...**

- Yenilik deyil. Biz o millət, o adamlarıq ki, Sabiri acından öldürüb, Mirzə Fətəlini müsəlman qəbiristanlığında dəfn olunmağa qoymamışıq. Hələ Cəlil Məmmədquluzadəyə nələr eləmişik. İndi bu kişilərin dirilərinə zülm eləyən biz, ölülərini bağrımıza basmışıq. Hətta heykəllərini ucaldıb altında gəzirik. Yəni başımızın üstündə tutruq. Bu cür münasibət görən nə birinci, nə də axırıncı adamam.

**- Sizi siyasətdən tam gedən adam saymaq olar? Yoxsa gedib, yenə gəlirsiniz?**

- Siyasətdən necə getmək olar? Ona bir dəfə gəlib, sona qədər qalırsan. Yəni çıxışı yoxdur. Taledən qaçmaq olmaz. Dövlət və dövlətçiliyimizlə bağlı heç nədə passiv ola bilmərəm. Xəmirim belə yoğurulub, lazım gəlsə yenə nəsə edəcəm. Sabahın necə olacağını kimsə bilmir. Yatıb yuxumda da görməzdim ki, bu boyda oyuna düşərəm, amma düşdüm. Qarşıma qoyulan, tapşırılan dövlət işlərinin yüzdə-yüz hamısına əməl edə-edə düşdüm. Yəni siyasətdəyəm.

**- Bir dəfə də ad çəkmirsiniz. Sizi kim “vurub”?..**

- Məsələ burasındadır ki, adamı ya iqtidar vurar, ya müxalifət. Məni hamı vurdu. Hər iki cəbhə vurdu. Bunu da edən adamlar var idi.

**- Axı kim?**

- Baxın, ad yüzdə yüz çəkməyəcəyəm. Amma hamı bilir, xüsusən də o zamankı parlament müxbirləri. Bəzilərinə kabus idim MM-də. Sevmirdilər məni. Yəni “qırmızı onluq” deyildim. Haqsızlıq görürdüm dillənirdim, alternativ variant olurdu səsimi yüksəldirdim, həmkarlara kömək gərəkirdi, çoxları qorxub çəkilirdi, sinəmi qabağa verirdim. Bu mənəm-mənəmlik deyil, gerçəkdən belə idim. İndi neynəyim ki, buna görür, hiss edir və niyəsə mənə nifrət formalaşırdı. Məhz o əllərə yaxşı bəhanə düşdü. Respublika Uşaq Təşkilatı, “Mərkəz” qəzeti, diaspora fəaliyyətim, seçicilərlə ünsiyyətim çox adamı qıcıqlandırırdı. Konkret işim, xəttim olub və öz istiqamətimlə yolumu getmişəm. Məni siyasətə ulu öndər Heydər Əliyev gətirib. Onun mənə, mənim də ona münasibətim hansı səviyyədə olub, bu bəllidir. İndiki prezident İlham Əliyevə də o zaman və indi münasibətim bəllidir. Onu incidəcək siyasi səhvlərə yol verməmişəm. Məlum siyasi oyunlar o zaman başladı, bu gün davam edir. Və bu gün Azərbaycan iqtidarının ətrafında gedən oyunları altı il əvvəl məhz mənim başıma gələnlərlə başladılar. Sadəcə səhvi orda buraxdılar ki, üzdə etməsələr də müəyyən vasitə ilə Elşad Abdullayevə qahmar çıxdıqlarını göstərdilər. Ona cəsarət verən, qorxma deyənlər, mənim bu qədər dözəcəyimi proqnozlaşdıra bilməmişdi. İndi başa düşürlər, səhv ediblər, hələ “kaş ki”ləri də var. Ciddidən kaş ki, elədiklərini, eləməzdilər...

**SON:** *İnsan həyatında hər şey olar. Enmələr, qalxmalar, bəzən uduzarsan. Haqlı olsan da haqsızlığa uğrayarsan. Gülər Əhmədovanın məsələsində haqq-ədalət hardadır, hələ dəqiq bilinmir. Dəqiq bəlli olan bir məqam var: o boyda günahı olsaydı bu boyda azadlığa buraxılmazdı. Necə ki, təcrübədə görmüşük, buraxılmayanlar var. O üzdən ittihamsız-filansız, sadəcə gözləmək gərəkdir. Nə deyirik, gözləyək...*

❑ **Jalə MÜTƏLLİMOVA,**
**Fotolar Elçin ƏKBƏROVundur**
**Musavat.com**

# Neftin rekord vuran qiyməti - nə qədər davam edəcək...

## İlham Şaban: “Bazara çoxsaylı amillər təsir edir”

**Dünya neft bazarında qiymətlər artmağa davam edir. Hazırda “Brent” markalı neftin bareli 74 dollar civarındadır. Son məlumatlara görə, Azərbaycana məxsus “AzeriLight” markalı neftin 1 barelinin dəyəri 1,54 dollar və ya 2,1 faiz artaraq 76,15 dollar təşkil edib.**



ABŞ prezidenti Donald Tramp isə neftin hazırkı qiymətinin süni şəkildə yüksək olduğunu bildirib. D.Tramp bu barədə “Twitter”də yazıb. O bildirib ki, neftin qiyməti süni şəkildə yüksəkdir və belə bir vəziyyət yaxşı deyil: “Bu, qəbuledilməzdir”.(APA)

Neftin qiymətinin belə artımı hansı səbəblərdən irəli gəlir və nə qədər davamlı ola bilər? Suala cavab verən ekspert, **Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban**ın dediyinə görə, son qiymət artımı bir neçə amillə bağlıdır: “Baxmayaraq ki, ötən həftənin yekunlarına görə, ABŞ gündəlik neft hasilatını 10.54 mln barelə çatdıraraq 1970-ci ildəki 10.2 mln barellik rekordunu artıq bir neçə dəfə təzələməyə nail olub, neftin dünya bazarlarında qiymətinin azalması hələ də ötən ilin sonunda proqnozlaşdırıldığı kimi müşahidə edilmir. Bunun bir neçə səbəbi var: Birincisi budur ki, ABŞ Enerji Administrasiyasının həftəlik hesabatına görə, ölkənin neft ehtiyatları 1.07 mln barel azalıb, həmçinin neft məhsulları ehtiyatlarında da azalma qeydə alınıb - bu faktora birjalar çox həssas yanaşırlar. İkinci amil budur ki, geopolitik risklər hələ də səngiməyib və Yaxın Şərqdəki vəziyyət dumanlı olaraq qalır. Bundan əlavə, İrana qarşı Vaşinqtonun sərt davranışlarına dair daha çox informasiya gündəmə gəlir və İran dini liderinin xüsusi xidmət rəhbərləri ilə görüşündə ”İrana qarşı müharibə gedir" kimi fikir səsləndirməsi vəziyyətin daha da mürəkkəbliyini göstərib. May ayında ABŞ-ın İrana qarşı sanksiyaları gücləndirməsi gözlənilir. Eyni zamanda bu gün(dünən -red.) Ciddədə (Səudiyyə Ərəbistanı) OPEC+ ölkələrinin görüşü keçirilir. Sabah Rusiya və Səudiyyə Ərəbistanının neft nazirləri görüşəcəklər. Orada 2019-cu ildə hasilatın dondurulması ilə bağlı yeni fikirlər və razılaşmalar səsləndirilə bilər ki, bunlara qarşı bazar çox həssasdır. Nəhayət, Venesuelada hasilat azalır ki, bu da bazara daha az neftin çıxması deməkdir".

**İ.Şabanın sözlərinə görə, neftin hazırkı qiymətlərinin tezliklə dəyişməsi üçün bir sıra faktorların təsiri mümkündür:** “Yaxın Şərqdə, xüsusilə Suriyadakı vəziyyətin tezliklə nizamlanacağı gözlənilmir. Eyni zamanda ABŞ-İran münasibətlərindəki dinamika da bazara təsir göstərir. Bundan əlavə, neft bazarındakı qiymətlərə təsir edən digər amillər də var ki, bir neçə aydan sonra nələrin baş verəcəyini proqnozlaşdırmaq mümkün deyil. Məsələn, bu ilin yanvar-fevral aylarında neftin qiymətinə təsir edən klimatik amillər idi - son 50 ildə Şimal yarımkürəsində belə soyuqlar olmamışdı. Hamı gözləyirdi ki, yazın gəlişi ilə enerjiyə olan tələbat azalacaq. Lakin bu gün Hollandiya və Böyük Britaniyada son 70 ildə ən isti yaz havası qeydə alınıb - 26 dərəcə. Onların 26 dərəcəsi bizim 35 dərəcəmizə bərabərdir. Yəni belə davam edərsə, yay isti keçərsə enerjiyə olan tələbat yüksək olaraq qalacaq. Ona görə də yaxın bir neçə ayda hansı proseslər baş verəcək və bu proseslər neftin qiymətinə necə təsir göstərəcək”

**Ekspert deyir ki, qiymət artımı sayəsində hasilatçı ölkələr neftdən yüksək məbləğdə əlavə gəlirlər əldə edirlər:** “Belə ki, Beynəlxalq Enerji Agentliyinin yeni məlumatına əsasən, 2018-ci ilin I rübündə OPEC ölkələri neftin qiymətinin artımı hesabına 2017-nin müvafiq dövrü ilə müqayisədə gündəlik olaraq 400 milyon dollar daha çox gəlir əldə ediblər. Neft ixracatçısı olan Azərbaycanın bu ilin birinci rübündə əlavə mənfəəti 2 milyard dollar olub”.

**Trampın mövqeyinə gəlincə, İ.Şaban bildirir ki, neft bazarındakı mövcud qiymətlər əslində həm də ABŞ prezidentinin “əməyinin məhsulu”dur:** “Dünya geopolitikasının gərginləşməsində Trampın da xeyli rolu var. Hansı ki, bu gərginliyin sayəsində neftin qiyməti onun bazar dəyərindən 15-20 faiz yüksəkdir”. ABŞ prezidentinin belə mövqeyindən sonra bu dövlətin neftin dünya bazar qiymətlərini aşağı salmaq üçün hərəkətə keçməsi mümkündürmü? Ekspertə görə, ABŞ və ya istənilən 1 dövlət neft bazarındakı prosesləri yönləndirməyə qadir deyil: “Bunlar siyasətçilərin spekulyativ iddialarından qaynaqlanır. ABŞ bir şişt nefti ilə dünya bazarında radikal dəyişikliyə nail ola bilməz”.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**




# “Xarici turistlər üçün Azərbaycanın turizm bazarı ucuzlaşmış sayılır”

**“10 il bundan əvvəl vəziyyət çox acınacaqlı idi. Bölgələrdə rəqabət və paralel çalışan turizm şirkətlərinin olmamsı qiymətlərin birqütblü inkişafına gətirib, çıxarırdı. Bu gün artıq xarici turistlər üçün Azərbaycanın turizm bazarı ucuzlaşmış sayılır”.**

Musavat.com bildirir ki, bunu Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyanın sədri Ruslan Quliyev mətbuata açıqlamasında bildirib.

O, qeyd edib ki, turizm sahəsində rəqabət o qədər güclüdür ki, bu qiymətlərin hissə-hissə aşağı salınmasına təsir edir: “Amma amansız rəqabət aparılmamalıdır. Bayramlar ərəfəsində bölgələrdə və eləcə də Bakıda yer tapmaq müşkül məsələyə çevrilir. Yaxşı haldır ki, artıq Azərbaycan vətəndaşları da erkən rezervasiyalarda iştirak etməyə başlayıblar. İstər xarici, istərsə də yerli vətəndaşlar erkən rezervasiya ilə büdcələrinə və istəklərinə uyğun qiymət əldə edə bilərlər”.

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**

# Ermənistanda müxalifət birləşir, Azərbaycanda isə didişir...

**Ermənistanda günlərdir davam edən etiraz aksiyaları yüksələn xətlə davam edir. Müxalifətin böyük bir kəsimi birləşərək prezidentlikdən getdikdən sonra baş nazir postunu zəbt edən Serj Sərkisyanın hakimiyyət hərisliyini qəbul etmir, onun istefasını tələb edirlər.**



## Əli Əliyev: "Məğlubiyyət yetim olur"



## Bəxtiyar Sadıqov: "Müxalifətin iqtidara qarşı birləşməsi üçün heç bir səbəb yoxdur"

Düşmən ölkədəki bu proseslər Azərbaycanda da yaxından izlənilməklə yanaşı, bir maraqlı məsələni gündəmə gətirib. Belə ki, erməni müxalifəti həlledici məqamda bir-birinə ehtiyac duyaraq birləşdi, vahid güclə rəqibinin üzərinə getdi. Amma Azərbaycan müxalifəti uzun illərdir nəinki bir-birinə yaxınlaşır, əksinə didişməkdə davam edir. Zaman-zaman seçkilərdə, digər proseslərdə Azərbaycan müxalifətinin vahid mövqedən çıxış etməsi cəhdləri baş tutmayıb.

*Səbəb nədir, Azərbaycan müxalifəti niyə pərakəndədir?*

**VİP sədri Əli Əliyev** bildirdi ki, bu acı mənzərə real siyasi həyatın bir tablosudur: "Baş verənləri yalnız Azərbaycan müxalifətinin mənfiliyi kontekstindən dəyərləndirmək olmaz. Bizim gördüyümüz şəkillənmə nəticədir. Tibdə nəticəni deyil, səbəbi axtarırlar. Siyasi analiz də bu prinsipə söykənməlidir. Fəlsəfədə də səbəb-nəticə kateqoriyaları mövcuddur. Mənə görə bu fərqlilik 2 dövlətdə mövcud olan siyasi konyukturadan irəli gəlir. Bu reallığın oxşar və fərqli cəhətləri mövcuddur. Qonşu dövlətlə fərqliliklərə daha çox diqqət yetirməyi düzgün hesab edirəm. Ermənistanda iqtidar Azərbaycanın işğalında iştirak etmiş qüvvələrin nəzarətindədir. İstər Köçəryan, istərsə də Sərkisyan əllərində silah qanımızı axıdıb, vəhşilik törədib, özləri üçün torpaq qazanıblar. Bizdə isə vəzifədə olanların bir çoxu 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin əleyhinə səs vermiş şəxslərdir. Təəssüf ki, bizim vətənpərvər siyasi nümayəndələrimiz hakimiyyəti saxlaya bilmədilər. Bu onların bağışlanılması müşkül olan tarixi səhvidir. Ona görə də oradakı iqtidarla bizim hakimiyyət arasında ciddi təməl fərqləri mövcuddur. Onların erməni faşizmi ideologiyası ilə silahlanmış iqtidarı anlayır ki, dünya erməniliyi üçün Ermənistan dövləti zəruri mahiyyət daşıyır. Onlar üçün dövləti maraq başlayan yerdə şəxsi maraq arxa plana keçir. Onların siyasətçilərini, dövlət xadimlərini nəzarətdə saxlayan vahid Qriqorian kilsəsi, diasporları, yeri gələndə terror təşkilatları vardır. Ermənistan parlamentində real müxalifət partiyalarının fraksiyaları mövcuddur. Neçə gündür qonşu dövlətdə həyat iflic edilib. Dövlət binaları, yollar, kommunikasiyalar bağlanır, rəsmən inqilab başladığı elan olunub. Amma xüsusi bir qəddarlıq müşahidə olunan qarşıdurma da yoxdur. 6 gün davam edən oturaq aksiyalarda cəmi 100 nəfər şəxs həbs edilib. İqtidar fasiləsiz şəkildə müxalifəti dialoqa çağırır. Ötənlərdə isə biz şahidi olmuşuq ki, Azərbaycanda güc strukturları aksiya edən vətəndaşlarla sərt davranır. Sıravi vətəndaş qladiator deyil. O meydana ölmək üçün çıxmır. Ona qarşı çıxan polisin də vətəndaşı şikəst etmək, öldürmək təlimatı olmalı deyil. İnsanların hüquq tələb etdiyinə görə sındırılması, həbsə atılması, təhqir edilməsi, ailələrin yaxınlarından imtina etdirilməsi dövlət siyasəti olmamalıdır. Müxalifətimizin fərqliliyi də bu altyapıdan törəyir. Məğlubiyyət yetim olur. Bu gün Azərbaycanda müxalifətin ədalət daxilində qələbəsi mümkün görünmür. Nəticəsi bəlli olmayan, perspektivi zəif görünən proseslərdə isə siyasətçilər daha çox şəxsi maraqlar üçün döyüşürlər. Kimlərsə anlaşaraq, özünü, ideyasını hakimiyyətə təslim etməklə yollarını davam edirlər. Digərləri isə məğlubiyyətlərini şüurlu şəkildə qavrayaraq reputasiyalarını, simalarını, prinsiplərini qoruyurlar. Bir sözlə, uyğun şərtlər yaranmayana, qələbə perspektivi azacıq da olsa duyulmayana qədər böyük nəticələri gözləmək, konsolidasiyanı görmək mümkün olmayacaq. Bizim müxalifət qüvvələrinin mütləq əksəriyyəti azacıq rəqabət şəraiti olduğu zamanlarda öz bacarıq, intellekt, birləşmək yetkinliyini hələ 30 il əvvəl göstərib. 30 il təcrübə toplamışların qazanmadıqları bir tərəfə, malik olduqları bəs hara getdi?".

**"Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov** müxalifətin arqumentlərinə sərt reaksiya verdi: "Əvvəla, onu deyim ki, planlı şəkildə Sərkisyan özünü baş nazir seçirdi. Bununla bağlı xalq ayağa qalxıb. Bütün dünya buna yaxşı görür. Rəhbəri olduğum qəzet də bununla bağlı çoxsaylı materiallar verib. Mövcud durumdan istifadə edərək, Ermənistanda demokratiya görüntüsü yaratmağa çalışırlar. Biz hadisələrlə bağlı şəkillərə, video kadrlara baxanda görürük ki, etirazçılar necə döyülürlər, zorakılığa məruz qalırlar. Buna haqq qazandırmaq, demokratik mühitin olduğunu demək mümkün deyil. Ola bilsin ki, hakimiyyəti hər şeydən qiymətli olan Sərkisyan rejimi bu etirazları boğacaq. Hətta deyildiyinə görə, Qarabağdan tankları da mərkəzə aparıblar. Bu proseslərdə Sərkisyan haqqında elə faktlar üzə çıxdı ki, o ciddi şəkildə nüfuzdan düşdü. Hesab edirəm ki, onun bundan sonra Ermənistana rəhbərlik etmək hüququ tamam tükəndi. Ermənistanda demokratik mühitin olması kimi fikirlərin səsləndirilməsi ermənilərin bu görüntünü yaratmaq istəklərinin məhsuludur. Orada heç bir demokratiya yoxdur. İnsan haqları ciddi şəkildə boğulur. Diqqət edin, Avropa qurumlarının birinin də səsi çıxmır. Azərbaycan müxalifəti Ermənistanda demokratiyanın olması barədə nümunə göstərməzdən əvvəl görsünlər ki, xalqımız prezidentliyə namizəd olan cənab İlham Əliyevi necə dəstəklədi. Cənab prezident yenidən qalib gəldikdən sonra Azərbaycanın xalqının bunu necə sevinclə qeyd etdiyini görmələri lazımdır. Ölkə miqyasında bir narazılıq faktı belə olmadı. Müxalifət adı altında Müsavat və Milli Şuranın nələrsə etmək cəhdlərinin nəyə xidmət etdiyi hər kəsə məlumdur. Dolanmaq üçün qrant almaları lazımdır. Azərbaycanla və Ermənistandakı vəziyyəti müqayisə etmək günahdır. Ölkəmizdə müxalifətin iqtidara qarşı birləşməsi üçün heç bir səbəb yoxdur. Ermənistanda müxalifət ona görə birləşir ki, ölkədə acınacaqlı durumdur, dövlətin müstəqilliyi yoxdur, Rusiyanın vassallarıdır. Xalqın səfaləti orada son həddə çatıb. Azərbaycanda isə inkişaf pik həddə çatıb, insanlar dövlət başçısından razıdırlar, prezidentimiz yeni proqramlarını elan edib. Burada müxalifət nə deyib birləşə bilər? Müxalifətin vəd etdiklərini prezidentimiz həyata keçirir. Ona görə də müxalifətin birləşməsi baş tutan məsələ deyil. Sadəcə bunu arzulaya bilərlər. Amma indiyə qədər heç birlikdə olublar? Onların bir-birinə qarşı kinləri var".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Sərkisyanın tumançaq əsgərləri



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Serj Sərkisyan baş nazir seçilən gündən bəri ona ikicə təbrik gəlib, ikisi də Rusiyadan. Əvvəl Putin təbrik etdi, ardınca da Medvedev. Rusiyalı aparıcının dili ilə desək, bu "gəzəyən"ndən zəhləsi gedən təkcə Nikol Paşinyanın rəbərlik etdiyi etirazçı qüvvə deyilmiş...**

Son bir həftədə baş verənlər göstərdi ki, artıq Sərkisyanın itilib getmək vaxtıdır. Ancaq haraya? Vaxtilə vətəndaşı olduğu Azərbaycanamı?.. Serj Sərkisyan o qədər cinayətlərə imza atıb ki, getməyə yeri də yoxdur. Onu xilas edə biləcək yeganə variant idi prezidentliyini baş nazirliyə dəyişməsi. Bunun üçün neçə illər idi planlar cızırdı, konstitusiya dəyişirdi, öz tərəfdarlarını parlamentə toplayırdı. Hətta özünün namizədini Böyük Britaniyadan gətirib prezident kürsüsünə oturtdu. Ancaq baş verənlər ondan xəbər verir ki, 2008-ci ildə qanını tökdüyü ermənilər bu dəfə ona növbəti şans vermək istəmirlər.

Ermənilər getdikcə daha çox anlayırlar ki, Qarabağın işğalı onlara xoşbəxtlik gətirmədi, bədbəxtlikdən başqa heç nə qazandırmadı. Sərkisyan özü də baş nazir olan gün etiraf etdi ki, ölkənin sərhədlərini qoruyacaq qədər gənc qalmayıb ölkədə. Ermənistandan kütləvi şəkildə qaçır erməni gəncləri. 10 milyonluq Azərbaycanın qarşısında 2 milyonluq sınıq-salxaq ermənilərin çoxluq təşkil etdiyi bir ölkə qalıb. Üstəlik, Ermənistanı hər cəhətdən "saxlayacağı" barədə öhdəlik götürən "ağa"sının da başı öz dərd-sərinə qarışıb. Günün birində Azərbaycan ordusu bayrağını Xankəndidə sancanda ermənilər üçün hər şey bitəcək, bunu dərk edənləri də az deyil.

**Publisist Lilian Karapetyanın etirafında baxın:** "Mənə maraqlı deyil, Qarabağ bizimdir, yoxsa Azərbaycanın, şəxsən mənə Qarabağ lazım deyil. Qoy, öz Qarabağlarını götürsünlər". Ermənilərin cəsarətliləri bunu açıq şəkildə deyir, ancaq qorxusundan dilə gətirməyənlər var ki, onları Qarabağ adlı bəlaya salanları lənətləyib əski günlərə dönmək, adam balası kimi yaşamaq istəyirlər. Qarabağdakı müharibə, münaqişə alovunu körükləyən sərkisyanlara qarşı nifrət həm də burdan qaynaqlanır.

Əgər dünən bu aksiyalar Sərkisyana özünü Qərbə "demokrat" göstərib, güzəştli kreditlər qopartmaq üçün lazım idisə, artıq proseslər onun əleyhinə yönəlib. Ermənilər indi bir çıxış yolu görür: "İstefa!"

Hətta katolikos Birinci Aram da işə qarışıb, İrəvana gəlib vasitəçilik üçün. Ancaq o da müxalifətlə dialoq aparmaq üçün Serj Sərkisyana yox, prezident Armen Sərkisyana müraciət edib. Di gəl, müxalifət də Sərkisyana deyir ki, sən əvvəlcə get, Britaniya vətəndaşlığından nə vaxt çıxdığın barədə arayış gətir, sonra səni legitim prezident olub-olmadığını dəqiqləşdirək, oturub-danışaq. Vəziyyət bu qədər mürəkkəbdir.

Serj Sərkisyan bu illərdə o qədər əclaflıqlar edib ki, artıq heç kim ona güzəştə getmək istəmir. 2016-cı ilin aprelində o qədər miskin durumdaydı ki, Levon Ter-Petrosyanın ayağına getdi. Ancaq sonra məsləhət aldığı adamı parlamentin qapısından içəri buraxmadı, yolunda əngəl gördü deyə. Hətta özünün Xocalıdakı cinayət ortağı Seyran Ohanyanı belə deputat olmağa qoymadı.

Amma daha ermənilər də tamaşalara inanmır. Hətta Kaliforniya ştatındakı ermənilər də Sərkisyana qarşı çıxıb. Erməni diasporu da ona qarşıdırsa, demək vəziyyət bəllidir. Hadisələrin başında İcevan ermənisi Paşinyanın dayanmağı da diqqət çəkir. Qarabağ ermənisinin əlində yesir olduğunu anlayır Ermənistan erməniləri. Dönük Azərbaycan vətəndaşını özləri cəzalandırmaq istəyirlər, nəhayət. Ölkədə qalacaqsa, onu ermənilər özləri gəbərdəcəklər, xaricə qaçacaqsa, Azərbaycanın İnterpola müraciət etməsi şansı yaranacaq. Ən maraqlısı 24 apreldə olacaq, Serjik axı həmin gün saxta "soyqırım" abidəsini ziyarət etməlidir. Ola bilsin elə xalq ordaca Sərkisyanı şaqqalasın.

**Bu hadisələrdə ən çox xoşuma gələn Paşinyanın burnunu aksiyalara soxan müdafiə naziri Vigen Sərkisyana cavabı oldu. "Qoy Vigen Sərkisyan əsgərlər üçün tuman və mayka alsın. Ermənistan ordusunda əsgərlər maykasız və tumansızdır, bax, döyüş qabiliyyətini təhdid edən bunlardır". Qarabağı işğalda saxlayan ordunun əsgərlərinin gerçək durumunu açdı Paşinyan. Tumançağ hərbçilərlə başı dumanlı Şuşanı işğalda saxlaya bilməyəcək Ermənistan! Yeri gəlmişkən, Ermənistanın "yeni Sərkisyan"ının ayağı düşərli olub bizimçün, prezident seçildiyi bir ay ərzində Qarabağda ölən və yaralanan ermənilərin sayı 10-a çatıb. Davamı gələr, inşallah!**

YENİ MÜSAVAT
N 85 (6975) 21 aprel 2018



# Müasir Şeyx Nəsrullahlar və onların qurbanları

**Samir SARI**

**Uzun illər öncə idi, tələbə yoldaşımla Gəncənin mərkəzində əmin-arxayın, şad-şalayın halda gəzirdik. Bazar tərəfdən gəlib mərkəzi univermağa yaxınlaşırdıq ki, qabağımızı bir falçı kəsdi: "Ay uşaqlar, ay tələbələr, gəlin, falınıza baxım".**

Xala tələbə olduğumuzu düz tapmışdı. *(Zatən, bunu bilmək çətin deyildi, o zamanlar tələbələrin 99 faizi kostyum geyir, qalstuk taxırdı).* Ancaq mənim belə şeylərə inancım yerli-dibli yox idi. Sadəcə, tələbə yoldaşımın suyulduğunu gördüm. Birlikdə dedik: "Yaxşı, bax, görək, nə göstərir".

Falçı xala cümləpərdazlığa başladı, giriş elədi, mənə dair bir şeylər mızıldandı, amma tələbə yoldaşımın falına dair daha konkret sözlər dedi: "Yaxın günlərdə sizin evinizdə bir məclis olacaq. Yaxşı məclis olmayacaq". Tələbə yoldaşım tutuldu, dedim, gəl, gedək, heç nə olmaz, sözdür də deyir.

Bu yerdə gəncəli Vanqa əlavə etdi ki, bir-iki manat da versək, baş tutacaq məclisin nədən ibarət olacağını, yəni təfərrüatlarını deyə bilər. Qoymadım. Falçı xaladan aralandıq. Yarım saatdan sonra da bu hadisəni unutduq, getdi.

Aradan üç gün keçdi, həmin tələbə yoldaşım səhər-səhər dərsə gəldi, dekandan icazə aldı, dedi ki, təcili rayona getməlidir, nənəsi ağır xəstələnib. Aydın məsələydi ki, nənə getmişdi. Adətən, uzaq yerdən adamı kiminsə xəstələnməsinə görə çağırmırlar, xəstəliyin nəticəsinə görə çağırırlar.

Dostum getdi, 3-4 gündən sonra qayıdıb gəldi, dedi, nənəsi vəfat edib. Söhbətimiz əsnasında o, birdən-birə şəhərdə bizə rast olan, məşum "sizdə yaxşı məclis olmayacaq" proqnozu verən falçını xatırladı və dedi, yadındadırmı, o arvad nə demişdi.

Düzü, o zaman içimə bir şübhə toxumu düşdü, fkirləşdim ki, bəlkə yaxın gələcəyi görmək qabiliyyətində olan adamlar doğrudan da var, niyə şəkk gətirirəm.

Ancaq sonradan o cür falçılara çox rastlaşdım, hamısı da demək olar ki, eyni sözü deyirdi. O sözlər ümumi səciyyə daşıyırdı, düz çıxanı da olurdu, düz çıxmayanı da. Yəni onlar, sanasan, bir ovuc buğdanı bir metrdən masa üstündəki stəkana atırdılar və təbii ki, bir neçəsi mütləq stəkanın içinə düşürdü. Bu da olurdu onların falçılığı. Bu, açıq-aşkar fırıldaq idi.

Di gəl, bu ölkədə yaşayan milyonlarla insanın onlara necə də ürəkdən inandığına tamaşa et. İstənilən falçının qəbulunda növbə gözləyənlərin sayı tibb akademikinin qəbuluna düşmək istəyənlərdən qat-qat çoxdur.

Bu fırıldaqçılar camaat arasında əməlli-başlı avtoritetdirlər. İnsanlar evlərini, maşınlarını satıb gətirir, onlara verir, özlərini təslim edir, onların quluna, köləsinə çevrilirlər.

Mirzə Cəlil 109 il öncə "Ölülər" pyesini yazıb, Şeyx Nəsrullahı xalqa təqdim edəndə heç düşünməzdi ki, bir əsr sonra bu xalq fırıldaqçı şeyxlərə hələ də o cür inanacaq.

Bu ağlasığmaz bir şeydir. Tibb bu qədər inkişaf edib, elmi-texniki nailiyyətlər bu qədər tərəqqidədir, hər gün bir elmi möcüzənin şahidi oluruq, amma bizim camaat hələ də adi attestatı belə olmayan falçılara, ekstrasenslərə inanır, onların fövqəladə qabiliyyətə malik olduqlarını düşünür.

Budur, ad-soyadını dəyişərək, yeni qəbul etdiyi ad-soyada "mir"lər artıraraq özünə "seyid-peyğəmbər övladı" status qazandıran, dini motivli etimad votumu əldə edən bir şəxs gənc qızları internet vasitəsilə tovlayaraq həm pullarını alıb, həm də özlərini zorlayıb, cinsi istismara məruz qoyub. Özünün etirafına görə, dəzgahından 46 qadın keçib.

Yaxşı, adam canidir, dələduzdur, seksual sapıqdır, bəs bu 20-25 yaşlı qızlara nə olub ki, tələbə hallarıyla, o qədər kitab-dəftər oxuya-oxuya, sosial şəbəkə üzvü olacaq, internetdən istifadə edəcək qədər modern biri ola-ola bir sapığa etimad edir, onu öz problemlərinin açarı sayır?

Bunun cahillikdən başqa bir adı yoxdur. Bu, həm də dərinə işləmiş, total xarakter almış cahillikdir. Bəlkə də irsən keçən cahillikdir. Lap istəyir min kitab oxu, kitabxananı başdan-başa oxu, yenə sağalası mərəz deyil.

**Bu cür sapıq-falçılarla mübarizənin yolu onların hamısını birbəbir tutub qandallamaqdır. Qoy görək gedib törətdikləri əməllərə görə içəridə onlara təkrar məhkəmə quran məhkumları öz məsumluqlarına inandıra, kimisə hipnoz edə, türkün sözü, paçalarını qurtara biləcəklərmi?**

# "Ticarət müharibəsi" səngimir - uduzan kim olacaq...

## Vüsalə Əhmədova: "Bu savaşın uzunmüddətli perspektivdə bütün dünyada iqtisadi artımı zəiflədəcəyi bir gerçəkdir"

**ABŞ prezidenti Donald Trampın başlatdığı dünya "ticarət müharibəsi" genişlənməkdə davam edir. Artıq bir çox beynəlxalq qurumlar bu savaşın dünya iqtisadiyyatındakı artım tempini əngəlləyəcəyi ilə bağlı həyəcanlı proqnozlar veriblər.**

Beynəlxalq Valyuta Fondunun (BVF) "Dünya iqtisadiyyatının inkişaf perspektivləri" adlı yeni məruzəsində bildirib ki, dünya iqtisadiyyatı yüksəlməkdədir, lakin bu tendensiya çox davam etməyəcək. Səbəb kimi ticarət müharibəsinin getdikcə alovlanması göstərilib: "Artıq potensial ticarət müharibəsinin ilk yaylım atəşləri guruldadı. Əgər ABŞ-ın büdcə siyasəti Avropa və Asiyada profisitlərin azaldılması üçün tədbirlər görülməməsi səbəbindən ölkənin ticarət defisitinə gətirib çıxararsa, münaqişə o zaman dərinləşə bilər".

Müəlliflər xəbərdarlıq edirlər ki, bu cür vəziyyət "dünya və daxili iqtisadi fəallığın göstəricilərinin və bazarlarda əhval-ruhiyyənin pisləşməsinə" səbəb ola bilər.

**İqtisadçı ekspert Vüsalə Əhmədova** da "Yeni Müsavat"a açıqlamasında bildirib ki, hazırda əsas potensial savaş ABŞ və Rusiya arasındadır: "22 mart tarixində ABŞ prezidenti Donald Tramp Çindən idxal olunan toplam dəyəri 60 milyard dollar olan mallara rüsum tətbiq edəcəyinə dair planını açıqladı. Amerika hökuməti Çini texnologiya oğurluğunda ittiham edir. Çinin isə cavab tədbiri olaraq, ABŞ-dan idxal olunan soya bitkisi və donuz əti də daxil olmaqla kənd təsərrüfatı məhsullarına əlavə 25 faizlik rüsum tətbiq edəcəyi düşünülür. Təbii olaraq, dünyanın aparıcı birjalarının indeksləri Tramp tərəfindən açıqlanan plana kəskin enişlə reaksiya verdi. Bilindiyi kimi, Dow Jones 2,93 faiz, S&P 2,52 faiz, Nikkei 4,5 faiz dəyər itirdi. Ümumiyyətlə "ticari müharibə" qorxusu investorların inkişaf etməkdə olan ölkələrin valyutalarına olan marağını azaldır. Bu qərar Rusiya birjalarına da təsirsiz ötüşmədi, RTS indeksi 0,49 faiz eniş göstərdi. Neftin qiymətinin artması fonunda rubl dəyərini bir müddət stabil saxlaya bildi. Fond birjalarında isə qeyri-sabitlik qalmaqda davam edir. Rusiyanın əsas ticarət tərəfdaşlarının Avropa ölkələri olduğunu düşünsək, iki ölkə arasındakı ticari çəkişmənin Rusiya iqtisadiyyatına çox təsir göstərməyəcəyi düşünülə bilər. Ancaq Rusiya artıq böyük "ticarət müharibəsi"nin tərəflərindən biridir. Rəsmi Vaşinqton istər diplomatik və istərsə də iqtisadi formatda Rusiyaya savaş elan etmiş vəziyyətdədir. ABŞ idxal olunacaq polada və alüminiuma tətbiq edəcəyi rüsumların Avropa, Avstraliya, Argentina, Braziliya və Cənubi Koreya istehsalçıları üçün ləğv edəcəyini qeyd etdiyi halda, Rusiya ölkəsidir və zəngin təbii ehtiyatlara malikdir qapalı şəraitdə belə istənilən çətinliyin öhdəsindən gəlmə iqtidarındadır. Hələ Sovet İttifaqı dövründə ölkə blokada şəraitində belə varlığını sürdürürdü. Əlbəttə, bu hal Rusiya iqtisadiyyatı üçün arzu olunan deyil, ancaq ölümcül də deyil. ABŞ hər necə olur olsun Rusiya ölkəsidir və zəngin təbii ehtiyatlara malikdir... xarici ticarətdəki görünən kəsiri aradan qaldırmaq məqsədilə polad və alüminiuma əlavə gömrük vergisi tətbiq etdiyi düşünülə bilər. Digər tərəfdən, "ticari müharibələr"in uzunmüddətli perspektivdə bütün dünyada iqtisadi artımı zəiflədəcəyi bir gerçəkdir. ABŞ-ın illik iqtisadi artım tempinin 10 faiz aşağı düşmə ehti-



və Çinin adını çəkmədi. Tətbiq edilən rüsumlar təbii olaraq Rusiya metallurgiya sənayesinə və ABŞ aktivlərinə sahib Rusiya şirkətlərinə mənfi təsir göstərəcək".

**İqtisadçının sözlərinə görə, Rusiya iqtisadiyyatının güclü və resurslarının geniş olması bu ölkənin ticarət müharibəsində çökdürülməsini əngəlləyəcək:** "Rusiya və ABŞ-ın ÜDM baxımından uyğunsuzluğu, ABŞ ilə Rusiya qarşıdurmasının uğurlu olacağını düşünməmizə imkan vermir. ÜDM-un həcmi dövlətin beynəlxalq çəkisini müəyyənləşdirməkdə əsas rol oynayır. Ancaq düşünürəm ki, vacib olan iqtisadiyyatın strukturu, onun resurs bazası və yüksək texnologiyalı məhsullar (hərbi sənaye) da daxil olmaqla, bütün malların müstəqil şəkildə istehsalına imkan verən ÜDM-un nominal həcmidir. Həmçinin, hərbi gücün dünya siyasətində rolu istisna edilə bilməz. Nəzərə alsaq ki, Rusiya ərazi baxımından dünyanın ən böyük siya iqtisadiyyatını çökdürərək, öz siyasi və iqtisadi hegemoniyasını qorumağa çalışır. ABŞ ümumən Rusiya hakimiyyətinin və siyasətinin dəyişməsi üçün, Rusiyanın dünya ticarətində iştirakını məhdudlaşdırmağa can atır. Qərbə də DTT qaydalarını heçə sayaraq Rusiyaya iqtisadi sanksiyalar tətbiq etməsi üçün təzyiqlər göstərir. Rusiya isə Şimali Koreya və İran ilə iqtisadi əlaqələrini genişləndirərək Qərbə alternativ axtarışındadır. Ticarətin dollarla deyil, konkret resursların barteri ilə həyata keçirməyi təklif edir".

**V.Əhmədova onu da bildirdi ki, bu ticarət müharibəsi ABŞ da daxil olmaqla dünya ölkələrinin iqtisadi inkişaf tempini zəiflətsə də, dolların mövqeyinin daha da güclənməsi ilə nəticələnəcək:** "ABŞ iqtisadiyyatı hazırda illik 2,2 trilyon dollar idxal, 1,42 trilyon dollar ixrac həyata keçirməklə dolayısıyla, illik 783 milyard dollarlıq xarici ticarət kəsirinə malikdir. Bir baxıma, ABŞ-ın malı da gözardı edilmir. Uzunmüddətli baxıldıqda, ABŞ-ın polad və alüminium idxalının azalması ölkə daxilində istehsal maliyyətlərini artırmaqla birgə, inflyasiyada da canlanma yaradacaq. Dolayısıyla FED uçot dərəcələrini artıracağı ilə bağlı qərar qəbul edə bilər. Bu isə bir çox inkişaf etməkdə olan ölkələr, xüsusilə yüksək xarici borcu olan ölkələr üçün risk deməkdir. Ola biləcək "ticari müharibə"lər və inkişaf etmiş ölkələrin yürütdükləri proteksionist siyasət bu riski daha da artırır. Dolayısıyla bu, ABŞ-a xammal ixrac edən inkişaf etməkdə olan ölkələrin milli valyutalarının dəyər itirməsinə gətirib çıxaracaq. Belə olan halda, yüksək faizli ABŞ dolları və Almaniya şirkətlərinin hissə sənədləri ön plana çıxmış olacaq. Görünən o ki, ABŞ-ın izlədiyi xarici siyasət qısa müddətdə dollar üzərində neqativ təsir yaratsa da, uzun müddətdə dollar güclü bir görüntü sərgiləyəcək".

**Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 86 (6975) 21 aprel 2018



# Sərkisyanın qazandığı sülh “təcrübəsi” - o, sülhü yox, müharibəni yaxınlaşdırır

Rəsmi Bakının Ermənistanda baş nazir dəyişikliyindən sonra diqqət etməli olduğu əsas məsələ - politoloqlardan maraqlı proqnozlar; **ekspert:** “Daha 2-3 aprel sindromu və Ermənistan bir dövlət olaraq dağılıb gedəcək...”

**Ermənistanda yeni baş nazir Serj Sərkisyan əleyhinə etirazlar davam eləsə də, hələ ki nümayişçilər əsas hədəflərinə nail olmayıblar. Bu, əslinə qalsa, qeyri-mümkün görünür. İki səbəbdən: birincisi, Rusiya Sərkisyana “dobro” verib və arxasındadır. İkincisi isə nümayişlərin təşkilatçısı olan deputat Nikol Paşinaynın qurumu qərbyönlü hesab edilir. Yəni “narıncı inqilab” qoxusu - hansından ki, Kreml od sudan qorxan kimi qorxur.**




**Bu arada işğalçı ölkədə artıq hökumət üzvləri bəlli olub.** Xəbər verildiyi kimi, yeni baş nazir Serj Sərkisyan keçmiş baş nazir Karen Karapetyanı özünə 1-ci müavin təyin edib. Prezident Aran Sərkisyanın sərəncamları ilə isə xarici işlər naziri Edvard Nalbəndyan və müdafiə naziri Vigen Sərkisyan öz yerlərində qalıblar. Yəni, faktiki surətdə Ermənistanda “Qarabağ klanı” hakimiyyətdə öz dayaqlarını qoruyub saxlaya bilib. Kütləvi etirazların əsas motivi də elə budur.

*****

**Ancaq bizi təbii ki, ən çox Dağlıq Qarabağa dair sülh danışıqlarının bundan sonrakı aqibəti maraqlandırır.** Görəsən, qarşıdakı illərdə işğalçı ölkənin başında duran yeni-köhnə komanda ilə bu danışıqlarda hansısa irəliləyişə nail olmaq mümkün olacaqmı? Bakı əsas diqqəti nəyə, hansı məsələyə yönəlməlidir?

“Hazırda situasiya tamamilə başqadır. Ən azı ona görə ki, Azərbaycan 1/4 əsr ərzində özünün tanınmış beynəlxalq nüfuzu və Ermənistandan üstün geosiyasi imkanları, habelə stabil siyasi sistemi ilə birgə güclü regional oyunçuya çevrilib. Bu, da Bakıya imkan verir ki, danışıqlar prosesində dominant rolu öz üzərinə götürsün”.

“Yeni Müsavat”ın məlumatına görə, bu fikri Azərbaycan prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya Kafedrasının dosenti Yelena Qasımova rusdilli vesti.az saytına açıqlamasında konfliktin həll perspektivlərindən danışarkən bildirib. Ekspert bu xüsusda daha sonra deyib: “Bu yaxınlarda Brüsseldə Dağlıq Qarabağ problemin dair Dəyirmi Masa keçirilib - nə barədə ki, maraqlanan müşahidəçilər "Deultsche Welle" nəşrinin icmalından məlumatlıdırlar. Orada bizim qərbli həmkarlarımız nədənsə öz qiymətləndirmələrində elə də inamlı olmayıblar. Məsələn, Britaniyadakı LİNKS Analitik Mərkəzin eksperti Denis Sammur hətta öz üzərinə falçı rolunu götürüb. Deyib ki, “İndi o məqamdır ki, nəsə baş verə bilər, nəsə müsbət baş verə bilər...” “Nəsə müsbət dəyişiklik” mənim anlamında Ermənistanın işğal altındakı rayonların azad edilməsinə razılığı ola bilər ki, bu da o halda olacaq ki, Bakı çox sərt şəkildə belə bir tələbi təkcə İrəvan qarşısında deyil, həm də beynəlxalq vasitəçilər qarşısında qoysun. Cənubi Qafqaz regionunda mövcud situasiya buna imkan verir".

Öz növbəsində Amerika-Azərbaycan Sülhə Dəstək Fondunun baş eksperti Aleksey Sinitsin hesab edir ki, Rusiyanın birmənalı şəkildə Ermənistanın arxasında durduğu keçmiş dönəm daha təkrarlanmayacaq: “Ermənistan NATO ilə, Qərblə oyun oynamaqda nə qədər uzağa getsə də, Qərb Qarabağ konfliktinin Ermənistanın xeyrini həll edə bilməyəcək və Rusiya güc qütbü kimi bunun qarant olacaq”.

**Politoloq hələlik dünyanın ən güclü oyunçularının Dağlıq Qarabağ məsələsində status-kvoya stavka etdiklərini düşünür.** “Çünki onların önündə başqa hərbi əməliyyatlar teatrları açılıb və Qarabağ məsələsi fövqəldövlətlərin görmə sahəsindən sıxışdırılıb. Bu isə münaqişənin həlli üçün Bakının əl-qolunu açır. Daha 2-3 aprel hadisəsi və Ermənistan bir dövlət, hərbi-siyasi quruluş olaraq dağılıb gedəcək. 2016-cı ilin aprelində belə oldu - Ermənistanın hərbi rəhbərliyi dəyişdi, erməni cəmiyyəti isə ağır depressiya durumana yuvarlandı. Belə ”sülhə məcburetmə" strategiyası uduşlu və qüsursuzdur, əgər münaqişə tərəflərindən biri düşmən üzərində güclü hərbi üstünlüyə malikdirsə. Azərbaycan bu gün məhz belə bir potensiala və üstünlüyə malikdir", - deyə o əlavə edib.

*****

Bu arada Serj Sərksiyan artıq baş nazir postunda “Sant” televiziyasına verdiyi ilk müsahibəsində Qarabağ məsələsində radikal mövqedən geri durmayacağına şübhə yeri qoymayıb (Axar.az).

“Bu konflikti gələcək nəsillərə saxlayacağımızı deməyə meylli deyiləm. Danışıqlar prosesi davam etməlidir. Dağlıq Qarabağ konflikti kompromis yolu ilə həll edilə bilər. Ancaq biz mövqeyimizi dəyişməyəcəyik. Siz başqa variantlar deyəndə, narahatlıq yaranır. Başqa variant nədir? Ermənistanda elə adamlar varmı ki, Qarabağı Azərbaycana qaytarsın? Mənim üçün bu, o qədər də anlaşılan deyil. Kompromis həm erməni, həm də Azərbaycan tərəfinin güzəştə getməsi deməkdir. O zaman məsələ həll edilə bilər. Başqa yol yoxdur. Əgər başqa yol - kompromissiz variant varsa, deməк, sülh yolu deyil”.

**Sərkisyan “stabilliyi qorumaq üçün ordunun təchizatını gücləndirmək lazım gəldiyini” də deyib.** Həmçinin bildirib ki, müttəfiqlərlə ittifaq dərinləşməlidir, çünki müttəfiqlərdən çox şey asılıdır.

Ermənistanda formal hakimiyyət dəyişikliyinin Dağlıq Qarabağ ixtilafının həllinə mümkün təsirləri barədə yerli ekspertlər də danışıblar. Məsələn, Musavat.com-un məlumatına görə, politoloq Ruben Mehrabyan erməni mediasına verdiyi müsahibədə Qarabağ münaqişəsinin nizamlanması prosesində ATƏT-in Minsk Qrupu çərçivəsində aparılacaq danışıqlarda yenə də Serj Sərkisyanın rəhbərlik edəcəyini deyib.

Onun rəyincə, hazırda probleminin nizamlanmasında kəskin dəyişiklik heç kimə sərf eləmir. “Elə Minsk Qrupunun həmsədr ölkələrinin də yarışın ortasında oyunçuları dəyişdirmək həvəsi yoxdur. Özü də Qarabağ meydanı dünyada Qərb və Rusiyanın maraqlarının toqquşmadığı və bir-birləri ilə zidd düşmədiyi yeganə sahə sayılır”, - deyə o iddia edib. Mehrabyan yaxın vaxtlarda Qarabağ məsələsində düyünün çözülməsinin mümkün olmadığını, lakin münaqişənin idarə olunması yönündə cəhdlər olunacağını sözlərinə əlavə edib.

**İrəvandakı Qafqaz İnstitutunun elmi əməkdaşı, politoloq Hrant Mikaelyan da işğalçı ölkədə icraedici gücün indən belə baş nazirə keçdiyi düşüncəsindədir.** Lakin o, prezident Aram Sərksiyanın da müəyyən məsələlərə təsir göstərəcəyini istisna etməyib. Hrant Mikaelyan da Ruben Mehrabyan kimi Qarabağ probleminin nizamlanması prosesini Ermənistan tərəfdən Serj Sərksiyanın izləyəcəyini deyir. “İstənilən halda Ermənistanın bu savaşda maraqları məsələsində ümumi anlayışlar var. Bu danışıqlarda Serj Sərkisyan qədər təcrübəlisi yoxdur. Doğrudur o, əvəzedilməz sayılmasa da, hər halda bu prosesdə olduqca vacib fiqur hesab olunur” - Mikaelyan bildirib.

*****

Serj Sərkisyannın “təcrübəsi” isə çoxdan ortadadır. Bu “təcrübə” əfsuslar olsun ki, Qarabağ konfliktinin dinc, ədalətli, beynəlxalq hüquq normaları əsasında birdəfəlik həllini istisna, böyük müharibəni isə qaçılmaz edir, günbəgün yaxınlaşdırır. Deməк ki, həmin “təcrübə” erməni xalqının da maraqlarına cavan verə bilməz. Çünki yuxarıda rus ekspertin dediyi kimi, budəfəki müharibədən Ermənistan adında dövlət sadəcə, çıxmaya bilər.

**Bunu Ermənistanda hələ ki, ağlını və məntiqini itirməyənlərin hamısı yaxşı başa düşür.** Məsələn, erməni publisist Lilian Karapetyan özünün Facebook səhifəsində yazıb: “Biz Ermənistanın artıq keçmiş prezidenti olan Sərkisyanın idarəçiliyindən yorulmuşuq. O, bizim üçün heç nə etməyib. O, yalnız xalqı qarət edib və indi də baş nazir olmaq istəyir. O, çox təhlükəli adamdır. Qarabağın bizim və ya azərbaycanlıların olması mənim vecimə də deyil. Mənə şəxsən Qarabağ gərək deyil. Niyə Ukraynada oğrunu (Viktor Yanukoviçi - red.) devirmək mümkün olur, Ermənistanda isə yox? Əgər kütlə toplaşsa, o zaman Serji də, onun oğru bandasını da devirə bilərik. Nə Qarabağ klanı, nə də Kreml ona kömək edə bilməyəcək”.

**Necə deyərlər, burada atıq əlavə şərhə yer qalmır...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 86 (6975) 21 aprel 2018



## Metronun elektrik deposunda qumbara tapıldı

**Aprelin 20-də saat 12:39-da Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən və saat 12:54-də Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Bakı şəhərinin Nərimanov rayonu ərazisində əl qumbarasının tapılması barədə məlumatlar daxil olub.**

ANAMA-dan APA-ya verilən məlumata görə, Agentliyin xüsusi mobil çevik əməliyyat qrupu əraziyə göndərilib.

Agentliyin mütəxəssisləri ərazidə "Bakı Metropoliteni QSC-nin N.Nərimanov adına Elektrik deposunun ərazisinə baxış keçirilib, aparılan təcili təxirəsalınmaz operativ əməliyyat axtarış tədbirləri nəticəsində 1 ədəd F-1 əl qumbarası aşkar olunub, zərərsizləşdirilməsi üçün götürülərək Agentliyin mərkəzi məhvetmə ərazisinə daşınıb.



## «Bakcell» əlilliyi olan uşaqlar üçün inklüziv təhsil və bərabər hüquqları təşviq edir

«Bakcell Stars» KSM proqramı vasitəsilə minlərlə uşaq üçün bərabər hüquqlar təmin edilib

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti BMT-nin Azərbaycan Nümayəndəliyinin "ASAN Radio" ilə hazırladığı "Qlobal məqsədlər" verilişinə dəstək göstərir. "Qlobal Məqsədlər" verilişinin növbəti buraxılışında dayanıqlı inkişaf məqsədlərinə nail olmaq işində inklüziv təhsilin rolu müzakirə ediləcək.**

**Bütün uşaqlar kimi, əlilliyi olan uşaqların da öz bacarıqlarını inkişaf etdirmək və arzularını reallaşdırmaq üçün keyfiyyətli təhsilə ehtiyacları var. Əlilliyi olan uşaqların cəmiyyətə töhfə verə biləcəyi bir çox sahə var və inklüziv təhsil bu potensialı ortaya çıxarmaqda açar rolunu oynayır. Lakin bütün dünyada əlilliyi olan uşaqlar məktəbdən və diqqətdən kənarda qalma ehtimalı ən yüksək olan insanlar arasındadır. İnklüziv təhsil sistemləri isə uşaqlara məktəbə getmək və öyrənmək üçün bərabər şans verir ki, bu da onların öz təhsil hüquqlarını və tam potensiallarını reallaşdırmasına imkan verir.**

**Bu həftənin qonaqları UNICEF-in Azərbaycandakı nümayəndəliyinin təhsil üzrə mütəxəssisi Leyla Həsənova, Təhsil Nazirliyi De-institutlaşma və Uşaqların müdafiəsi idarəsi xüsusi təhsil şöbəsinin müdiri Anar Xəlәfov və 138 saylı məktəbin direktoru Mirfaiq Mirheydərlidir.**

**Veriliş "ASAN Radio"da 23 aprel 2018-ci il tarixində saat 18:20-də efirə gedəcək. Verilişin təkrarı 25 aprel (saat 11:05-də) və 27 aprel (saat 14:05-də) tarixlərində yayımlanacaq.**

**"Qlobal Məqsədlər" radioverilişinin əsas məqsədi Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı məlumatlılığın artırılması, 2030-cu ilə qədər olan tədbirlər planı üzrə həyata keçirilən layihələr və dayanıqlılığın təmin olunması üçün müxtəlif strukturların və vətəndaşların üzərinə düşən vəzifələrlə bağlı ictimaiyyəti məlumatlandırmaqdır. Qeyd edək ki 2015-ci ilin sentyabr ayında dünya liderləri tərəfindən 17 Dayanıqlı İnkişaf Məqsədi qəbul edilib. Həmin məqsədlər yoxsulluğa son qoymaq, inkişaf və insanların rifahını təşviq etmək, eyni zamanda ətraf mühiti qorumaq üçün səylərin birləşdirilməsini nəzərdə tutur.**

**Aprel ayı ərzində «Bakcell» şirkətinin dəstəyilə "ASAN Radio"da (100FM) 5 veriliş efirə veriləcək.**

**Özünün «Bakcell» Stars Korporativ Sosial Məsuliyyət Proqramı çərçivəsində «Bakcell» şirkəti əlilliyi olan və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquqların və inklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihələrə dəstək göstərir. Bu layihələrin bir hissəsi uşaq inkişaf mərkəzləri və inklüziv təhsil müəssisələrinə xüsusi olaraq əlilliyi olan uşaqlar üçün hazırlanmış kompüter və digər avadanlıqlarının təmin edilməsini əhatə edib. Bu günə qədər «Bakcell» "SOS Uşaq Kəndləri", "Save the Children" və "Azərbaycana Birgə Yardım" kimi təşkilatlarla birgə həyata keçirilmiş lahiyələr vasitəsilə minlərlə uşağa dəstək göstərib. «Bakcell» inanır ki, "Hər bir uşaq bir ulduzdur!" və bərabər hüquqlara malik olmağa layiqdir!**

# "Dedim ki, kəlimeyi-şəhadətini gətir..."

## "Gördüm ki, Allah, Allah deyir. Əzab çəkməsin deyə boğub öldürdüm" - dəhşətli qətlin təfərrüatları

**Dostunu öldürməkdə təqsirləndirilən şəxsin məhkəməsi başlayıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə ittiham edilən Amal Zülfüqarovun cinayət işi üzrə məhkəmə iclası keçirilib. Hakim Zeynal Ağayevin sədrliyi ilə baş tutan məhkəmə iclasında dövlət ittihamçısı ittiham aktını elan edib.**



İttihama görə, Amal Zülfüqarov Xaçmazda istirahət mərkəzində olarkən dostu Qismət Məmmədlinin ona baxmasına irad bildirib. Bu zaman aralarında mübahisə yaranıb. Daha sonra Amal dostu Qismətin onun xaricdə yaşayan bacısı ilə danışdığından şübhələnib və onu öldürmək qərarına gəlib. Qobustanda kafedə olarkən birlikdə domino oynayıblar. Bu zaman arxadan Qismətə yaxınlaşaraq, onun boyun və sinə nahiyyələrinə zərbə endirib. Kafedə olanlar Amalı sakitləşdirə bilməyiblər.

Amal yaralı vəziyyətdə olan və yerə yıxılan Qismətin boğazından tutaraq, onu boğmağa başlayıb. Kafedə olanda Tələt Hüseynov və Haldun Nəbizadə onu tutaraq, əlindən bıçağı almaq istəyiblər. Amma Amal Zülfüqarov onlara da bıçaq zərbəsi endirərək, yenidən Qismətə hücum edib və ürək, boğaz, sinə və qarın nahiyyələrinə bir neçə zərbə də endirib.

Amal Zülfüqarov xüsusi amansızlıq, xuliqanlıq niyyəti ilə köməksiz vəziyyətdə olan şəxsi öldürməkdə ittiham edilib. Ona qarşı Cinayət Məcəllәsinin 120.2.2-ci, 120.2.4-cü, 120.2.9-cu və 221-ci maddələri ilə ittiham irəli sürülüb.

Amal Zülfüqarov özünü qismən təqsirli bilib və xüsusi amansızlıqla adam öldürdüyünü etiraf edib. Məhkəmədə Amal Zülfüqarova sərbəst ifadə vermək təklif edilib. Amal deyib ki, öldürdüyü Qismətlə dost kimi yaxşı münasibətləri olub, amma son zamanlar dostu ona qarşı dəyişib.

O söyləyib ki, hadisədən bir neçə gün əvvəl Qismət və daha iki dostu onu iş yerindən götürərək "Atlant" istirahət mərkəzinə gediblər. Bu zaman dostu Qismətin ona qarşı münasibətinin tam dəyişdiyinin şahidi olub: "Yolda mənə qarşı fərqli şəkildə davrandıqlarını hiss edirdim. Sözümü kəsirdilər, danışdırmırdılar. Qismət də qayıtdı ki, bir nəfərin bacısı ilə yazışıram, bilsələr, başıma sıxacaqlar. Mənim də ürəyimə xal düşdü. Getdik istirahət mərkəzinə... Qismət mənə tərs-tərs baxdı. Səbəbini soruşanda söyüşlə dedi ki, yaxşı edirəm. Mən də uşaqlardan səbəbini soruşdum. Onlar da heç nə demədilər. Artıq mən də əsəbləşməyə başladım".

**Amal qeyd edib ki, məsələni araşdırmaq üçün bir neçə dəfə Qismətlə danışmaq istəyib**: "Qisməti tapa bilmirdim. Onunla təkbətək görüşə bilmirdim. Bir dəfə görüşdük. Mənə qayıtdı ki, get qazı aç, evdə özünü öldür. Mən də səbəbini soruşdum. Dedi ki, hamının içində deyəcəm. Mən ona dedim ki, səninlə qardaş kimi olmuşam, amma mənə qarşı nəsə söhbət olsa, səni öldürərəm. Hamının içində də bunu dedim. Növbəti dəfə Qobustanda kafedə görüşdük. Həmin sözü orada da dedi. Amma orada olan Nicat dedi ki, söhbəti açma... Mən də əsəbləşdim. Oturanda arxadan ona yaxınlaşdım. Qalxmaq istəyəndə çiyinindən tutdum. İlk dəfə orada sinəsindən vurdum. Qalanı da yazıldığı kimidir".

**A.Zülfüqarov digər şəxsləri də bıçaqlamasının səbəbini belə izah edib:** "Mən Haldunla, Tələtlə dost olmuşam. Çörək kəsmişəm. Onlara zərbə endirməmişəm. Ola bilər ki, məni aralayanda dəyib".

**Məhkəmədə o da məlum olub ki, A.Zülfüqarov kafeyə gələn təcili yardım işçilərini də içəri buraxmayıb:** "Mən onu xüsusi amansızlıqla öldürmüşəm. Etiraf edirəm. Onunla çox yaxın olmuşam. Amma etdiyi səhvi bağışlaya bilmirdim. Ona vurduqca bilirdim ki, əzab çəkir. Mən özüm də əzab çəkirdim. Bıçağı vuranda gördüm ki, xırıldayır. Dedim ki, ölürsən, kəlimeyi-şəhadətini gətir. Gördüm ki, Allah, Allah deyir. Əzab çəkməsin deyə boğub öldürdüm. O, əzab çəkdikcə mən də əzab çəkirdim. Həkimlər içəri girəndə qoymadım, yaxınlaşsınlar. Artıq ölmüşdü, qadınların da yaxınlaşmasını istəmədim".

Hadisə Qaradağ rayonunun Qobustan qəsəbəsində yerləşən kafelərdən birində baş verib. Kafedə baş verən kütləvi davada Qismət Fərhad oğlu Məmmədli bıçaqlanaraq öldürülüb. Daha iki nəfər - Haldun Əbuzərli və Tələt Hüseynli bıçaq xəsarətləri ilə xəstəxanaya yerləşdiriliblər.

**Həyata keçirilən əməliyyat tədbirləri nəticəsində hadisənin 1995-ci il təvəllüdlü Amal Mahir oğlu Zülfüqarov tərəfindən törədilməsi müəyyən edilib və o, saxlanılıb. Amal Zülfüqarov ARDNŞ-in Nəqliyyat İdarəsinin rəisi Elçin Zülfüqarovun qardaşı oğludur.**

❑ **İ.MURADOV, Musavat.com**



## "Yeyib-içib, "dərman" atmışam" - 3 mağaza, 6 ev soyan oğru

**Qaradağ rayonu Lökbatan qəsəbəsində yaşayan Həbib Həsənovun evindən oğurluq edilib. ARB TV xəbər verir ki, zərərçəkən Qaradağ Rayon Polis İdarəsi 10-cu Polis Bölməsinə şikayət edərək mənzilindən pul və qızıl-zinət əşyalarının aparıldığını bildirib.**

Qaradağ Rayon Polis İdarəsi Cinayət Axtarış Şöbəsi və 10-cu Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində həmin cinayəti törətməkdə şübhəli bilinən keçmiş məhkum, Masallı rayon sakini Rafiq Mirağayev saxlanılıb. İstintaq zamanı onun digər oğurluq cinayətlərinin də üstü açılıb və ifadəsində əməllərini boynuna alıb.

**Rafiq Mirağayev (saxlanılan şəxs):** "3 mağazadan, 6 evdən oğurluq etmişəm. Manat da olub, dollar da olub. Çıxıb şəhərdə xərcləmişəm. Yeyib-içmək ora bura, arada "dərman" da atmışam".

Faktla bağlı Qaradağ Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.

Araşdırmalar davam etdirilir.

## Yol nişanlarını oğurlayıb satan keçmiş məhkum tutuldu

**Masallı Rayon Polis Şöbəsinə Sərcuvar-Hüseynhacılı avtomobil yolundan yol-tikinti şirkətlərindən birinə məxsus ümumilikdə 40 ədəd yol nişanının oğurlanması barədə müraciət daxil olub.**

DİN-in mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, dərhal başlanan əməliyyat-axtarış tədbirləri ilə oğurluğu törətməkdə şübhəli bilinən şəxs müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılıb.

Araşdırmalarla onun Qasımlı kənd sakini, əvvəllər məhkum olunmuş İlqar Şükürov olduğu müəyyən edilib.

Nişanların bir qismi maddi sübut kimi ondan götürülüb.

Faktla bağlı cinayət işi başlanılıb. İstintaq aparılır.

❑ **Musavat.com**

## Dənizə düşən 17 yaşlı qız xilas edildi

**Bakıda 17 yaşlı qız dənizə düşüb. APA-nın FHN-in saytına istinadən verdiyi məlumata görə, Səbail rayonunda Dənizkənarı Milli Park ərazisində 1 nəfərin dənizə düşməsi barədə Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə məlumat daxil olub.**

Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin müvafiq xilasetmə qüvvələri hadisə yerinə cəlb olunub. 2001-ci il təvəllüdlü Qafarova Fatimeyi-Zəhra Şəfi qızı sudan çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. Əməliyyat başa çatıb.

YENİ MÜSAVAT
N 86 (6975) 21 aprel 2018

**Falçılarla bağlı dələduzluq faktları günbəgün artır. Bu qalmaqallardan biri "Yeni Müsavat" qəzetinin dünənki sayında yer alıb. Yanına gələn cavan qızların çayına dərman atıb onları zorlayan falçı ilə bağlı şikayətçilərin dedikləri gündəmin əsas mövzularından biridir.**



# İnsan həyatını qaraldan falçılar

## Onların qurbanları arasında sıradan insanlar da var, milyonerlər, siyasətçilər də...

Doğrudur, indi cəmiyyətdə zərərçəkmiş qızların dedikləri ilə bağlı şübhəyə düşənlər də var. Amma bilinən fakt odur ki, falçılıq ölkəmizdə dələduzluğun başqa bir adıdır və bu, təkcə pul itkisi yox, insan talelərinin zədələnməsi ilə müşayiət olunur. Bu barədəki faktlara qayıdacağıq. Hələliksə...

**Qərbdə insanlar falçılara niyə inanır?**

**Çikaqo Universitetinin müqayisəli din üzrə mütəxəssisi Mirça Eliada**nın araşdırmasına görə, hazırda Qərbin inkişaf etmiş ölkələrində də falçılığa meyl çoxdur. Hətta savadı və dünyagörüşü yüksək səviyyədə olan insanlar da bunu "yeni elmi cərəyan" adı ilə təqdim etməkdən çəkinmirlər. "Yeni əsr"in milyonlarla sakini gələcəyi öyrənmək, çoxsaylı suallarına cavab tapmaq üçün onların qapısını döyür. M.Eliada araşdırmasında onu da üzə çıxarıb ki, artıq insanlar təkcə bu şəxslərin xidmətindən yararlanmır. Eyni zamanda bu sahəyə aid elmi ədəbiyyatı oxuyur, hətta bəzən falçılıqla həvəskar səviyyəsində məşğul olurlar.

**Türkiyəli psixoloq Gülçin Balkı** isə açıqlayıb ki, son illər insanların falçılara, astroloji proqnozlara bu qədər meyl etməsinin səbəbi "bilinməzə" marağının artmasıdır. Bu ehtiyacın mərkəzində isə insanların qərar verməmdəki özünə inamsızlığıdır. Belə ki, falçıya gedən insanlar "gözlənilən" hadisələri başqasının dilindən eşitmək ehtiyacıdır. Bu isə məsuliyyətin paylaşılması istəyindən irəli gəlir. Psixoloqa görə, bunun adı insanın özünü aldatmasından başqa bir şey deyil. Belə ki, xarakteri güclü olan insan qərarlarını öz iradəsi ilə verir və bu məsuliyyəti də şəxsən özü paylaşır.

Bəs Azərbaycanda durum necədir? 2013-cü ildə **İqtisadiyyat və Sosial Araşdırmalar mərkəzinin nümayəndəsi Vüqar Bayramov** "Exo" qəzetinə açıqlamasında demişdi ki, Azərbaycanda falçılıq və cadugərliyə 2012-ci ildə təxminən 200 milyon manat pul xərclənib. Onun sözlərinə görə, bu, əvvəlki illərə nisbətdə fantastik artımdır. "Əvvəllər bu göstərici daha aşağı idi. Xərclənən məbləğ heç 100 milyon manata çatmırdı. Ancaq ötən il apardığımız monitorinq bizi pis mənada təəccübləndirdi. Göstərici 2 dəfədən də çox artmışdı", - deyə ekspert bildirmişdi.

**Azərbaycanda falçılar insanları necə və neçəyə aldadır?**

İndi isə keçək ölkəmizdə falçılarla bağlı yaşanan kriminal olaylara, məhkəmə proseslərinə.

2017-ci ilin iyunun 1-də Bakı şəhər sakini 2 nəfər polisə müraciət edərək bir qadın tərəfindən fala baxmaq adı ilə aldadılaraq ümumilikdə 1100 manat pullarının alındıqlarını bildiriblər. Təxirə salınmadan keçirilən əməliyyat tədbirləri nəticəsində həmin dələduzluq əməlini törədənin Bakı şəhər sakini Roziya Jelandinovna olması müəyyən edilib və görülən tədbirlərlə o tutulub.

Faktla bağlı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar aparılır. Polis əməkdaşları dələduzluq etməkdə şübhəli bilinən Roziya Jelandinovnanın digər analoji cinayətlərdə iştirak etdiyini də istisna etmir.

2016-cı ilin iyun ayında naməlum şəxs Masallı şəhəri, Heydər Əliyev prospekti mənzil 3-də yaşayan Tünzalə Yusif qızı Alışovanın evinə gəlib. O, baxıcılıq və falçılıq etdiyini, bu evdə yaxın zamanda "bədbəxt hadisələrin" olacağını bildirib. Sonradan evə daxil olan qadın ev sahibinə iddia etdiyi hadisələrin qarşısını ala biləcəyini də söyləyib. Naməlum şəxs qadını aldadaraq, etibarından sui-istifadə etməklə evdə olan üç min manat dəyərində qızıl-zinət əşyalarını ələ keçirib.

Sonradan aldadıldığını başa düşən T.Alışova Masallı Rayon Polis Şöbəsinə (RPŞ) şikayət ərizəsi ilə müraciət edib.

**Masallı RPŞ-dan bildirilib ki, dələduzluqda şübhəli bilinən falçı qadın tutulub:** "Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Bərdə rayon sakini, 36 yaşlı Rəsilə Mirələm qızı Abdullayeva şübhəli şəxs qismində saxlanılaraq ifadəsi alınıb. O, əməlini etiraf edib".

2015-ci ildə isə Bakı Ağır Cinayətlər Məhkəməsində Bakı şəhər sakini Saraxanım Babayevanın (1949-cu il təv.) CM-nin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə məhkəmə prosesinin baxışı yekunlaşıb.

Saraxanım Babayeva özünü "ilahi qüvvəyə malik falçı" kimi təqdim edib, vətəndaşların etibarından sui-istifadə etməklə onlara məxsus pulu mənimsəyib. Təqsirləndirilən şəxs baldızı qızının vasitəsi ilə tanıdığı Turanə Məmmədli adlı qadına evlərində baş verəcək faciənin qarşısını alacağını vəd edərək sonuncunun 1500 manat pulunu ələ keçirib. Daha sonra gələcəkdə evləri söküləndə T.Məmmədliyə böyük məbləğdə pul veriləcəyinə inandıraraq onu öz yaşadığı evə qeydiyyata saldırmaq adı ilə əlavə 5500 manat pulunu alıb.

Bundan başqa S.Babayeva tanış olduğu Təranə Mərdanovaya yüksək vəzifəli şəxslərlə tanış olduğunu deyərək onu dövlət idarələrinin birində şöbə müdiri vəzifəsinə işə düzəldəcəyinə söz verib və bunun müqabilində ondan 25000 manat pulunu və külli miqdarda qızıl-zinət əşyalarını dələduzluq yolu ilə ələ keçirib. Qadın daxil olan şikayət əsasında Səbail RPİ 8-ci polis bölməsinin əməkdaşları tərəfindən saxlanılıb. İstintaqın gedişatında onun yaşı və səhhəti nəzərə alınmaqla barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib.

Məhkəmə prosesində Saraxanım Babayeva ona elan olunmuş ittihamla özünü qismən təqsirli hesab edib.

Məhkəmənin hökmü ilə təqsirləndirilən şəxs 7 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunub və o, məhkəmə zalında dərhal həbs olunub.

2016-cı ilin sentyabrında vətəndaşlardan daxil olan çoxsaylı müraciətlər əsasında Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən dələduzluqla məşğul olan şəxs yaxalanıb. Bakı şəhəri Binə qəsəbəsində yaşayan 39 yaşlı Vüsal Hüseynov ona müraciət edən şəxslərin talelərini şər qüvvələrdən təmizləməklə bəxtlərini, yollarını açacağını və ruzilərinin bol olacağını vəd edib. Saxlanılan şəxs belə hüquqazidd əməllərinin müqabilində ona müraciət edən vətəndaşlardan ümumilikdə 6700 manat pulunu dələduzluq yolu ilə ələ keçirib.

Nizami rayon 23-cü Polis Bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində, 2014-cü ilin noyabr ayında Bakı şəhər sakini Təranə Babayevanın etibarından sui istifadə edərək özünü ekstrasens kimi təqdim etməklə 4200 manatını alaraq dələduzluqda şübhəli bilinən Bakı şəhər sakini, 1960-cı il təvəllüdlü Tamilla Salamova tutulub. Hadisə bu yaxınlarda baş verib.

Məmurlara yaxın olduğunu iddia edən 1949-cu il təvəllüdlü Saraxanım Süleyman qızı Babayeva 7 il müddətinə azadlıqdan məhrum olunub.

**"Həzrət Sabir" kimi tanınan falçı Sabir Abbasov** da həbs edilib. "Cənnət Parapsixologiya Mərkəzi" MMC-nin direktoru, dövrümüzün "Şeyx Nəsrullahı" sayılan "Həzrət Sabir" əlil arabasında olan əlilləri əllə müalicə etdiyini söyləməklə külli miqdarda vəsait mənimsəməkdə ittiham edilir.

Azərbaycan qanunvericiliyi isə bu məsələdə olduqca sərtdir. Belə ki, Cinayət Məcəlləsinin 178-ci maddəsinə görə, etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə - dələduzluq cinayətinin əlamətləridir. Falçılar insanların onlara göstərdiyi etibardan sui-istifadə edirlər. Xəstəni müalicə edəcəyi, itkin insanı tapacağı vədini verən şəxs bütün hallarda qarşı tərəfi aldatmış sayılır. Məqsəd yenə də haqsız qazanc təmin etmək, başqasının əmlakını ələ keçirməkdir. Əvvəlcədən insanı aldadıb və ya etibarından sui-istifadə edib, həlli mümkün olmayan vəd verməklə pulunu almaq artıq dələduzluq hərəkətidir.

**Siyasətçilər falçıların köləsinə çevrilərsə...**

Amma dünyada baş verən proseslər onu göstərir ki, falçılar zaman-zaman ölkədə ciddi problemlər yaradıblar. Məsələn, İraq DİN 2016-cı ildə bəyan edib ki, "şarlatan falçılara qarşı kampaniyaya başlayır". Nazirlik sehrbazları ölkənin çətin durumundan sui-istifadə etməkdə ittiham edir.

Nazirlik mediaya bildirib ki, falçılıq ölkə qanunları ilə qadağan edilib və fırıldaqçılıq əməli sayılır. DİN bunu da əlavə edir ki, qara magiya və falçılığın kökü yalnız vətəndaşların iradəsi ilə kəsilə bilər.

Buna baxmayaraq, belə görünür ki, falçılıq çox sayda insanı öz cazibəsinin əsiri edə bilib. "Əl-Ərəbi əl-Cədid" qəzeti yazır ki, bazarda satışda olan tilsimlərdən ən bahalısı "gülləndən qoruyan tilsimdir" və 1000 dollara satılır.

Qəzet yazır ki, belə tilsimləri yaxalarından siyasətçilər və hərbçilər də asırlar.

Şri Lanka prezidenti Mahinda Rajapaksanın nümunəsi olduqca əyləncəlidir. Maraqlıdır ki, falçısının məsləhəti ilə sürpriz erkən seçkilərə gedən və seçkilərdə uduzan prezident mediaya açıqlamasında özünü məhz bu cür müdafiə etmişdi: "Hətta Nostradamus da səhv edə bilər. Mənim falçım da istisna deyil. Səslərin cəmi 41 faizini alacağımı heç vaxt təxmin etməzdim".

Bu uğursuzluqdan sonra falçı Sumanadasa Abeygunavardena isə prezidentlə yollarını ayırmalı olub. Çünki sonuncu bu fiaskosunu şəksiz falçısına "borclu idi". Üstəlik, məlum hadisədən sonra falçının da populyarlığı sıfıra enmişdi.

Rusiya prezidenti Vladimir Putinin, eləcə də Venesuelanın sabiq prezidenti Uqo Çavesin də zaman-zaman falçı xidmətindən istifadə etdiyi mediada yer alıb. Onlar daha çox mənfi enerjini qovmaq, magiyadan qurtulmaq üçün bu yola baş vurub.

❑ **Sevinc TELMANQIZI**
**"Yeni Müsavat"**

# YENİ MÜSAVAT

## Son səhifə

N 86 (6975) 21 aprel 2018


## Balaca uşaqlara ağlasığmaz təhqir

İngiltərənin Bray-ton-i-Hov şəhərində yerli rəhbərliyin addımı valideynlərin qəzəbinə səbəb olub. Belə ki, gələcəyin şagirdi olan 4 yaşlı uşaqlara anketi valideynləri ilə birgə doldurarkən "sən özünü hansı cinsdən hiss edirsən" sualına cavab vermələri tələb olunub. İzahat isə belə olub ki, "əgər sizin uşaq özünü orta cinsə aid hiss edirsə, siz bu anketi doldurmadan bu məsələni bizim məktəbin rəhbərliyi ilə müzakirə edə bilərsiz".

Amma şəhər rəhbərliyinin bu addımı valideynlər arasında ciddi narazılıq yaradıb. "Axı onlar böyük adam deyillər və hələ cinsi yetişkənlik dövrünə qədəm qoymayıblar. Buna görə də özlərini hansı cinsdən hiss etdiklərini bilmirlər". Bunu da analardan biri deyib.

Britaniya parlamentinin üzvü Endryu Bridcen də yerli hakimiyyətin bu addımını anormal adlandırıb. "Məktəblərdə uşaqlara yazıb oxumağı öyrətmək lazımdır, cinsiyyətini dəyişdirməyə hazırlamaq yox".

Amma bu etirazlara baxmayaraq, yerli hakimiyyət orqanları deyiblər ki, anketlərin doldurulması heç də vacib deyil və bu məsələnin valideynlərlə uşaqlar arasında müzakirəsi də vacib deyil.

## Qatardakı ilan aləmi bir-birinə qatdı

Avstraliyanın Kiama şəhərindən Sidneyə hərəkət edən sərnişin qatarında ilan aşkar olunub. Bu barədə lenta.ru saytı "The Sydney Morning Herald"a istinadən xəbər verir. İlanı oturacaqların altında aşkar ediblər. Bu fakta görə qatarı saxlamasalar da, sərnişinlərin yerini dəyişiblər. Vaqonda adam qalmayanda isə onu bağlayıblar. Sidney avtovağzalına gələndə mütəxəssis vaqona baxış keçirib və heyvanı tutub. Məlum olub ki, bu, Çildren cinsindən olan pitondur. Bu növün təmsilçiləri zəhərli deyil, bir metrə qədər uzanır və insanlar üçün heç bir təhlükə təşkil etmirlər. 13 apreldə isə məlum olub ki, Avstraliyada bir ilanı narko asılılıqdan xilas ediblər. Avstraliyada ilanın 170 növü mövcuddur.



## Kim keçmiş sevgilisini söymək istəsə...

Avstraliyanın "Creative Collective" nəşriyyatı sevgilisindən ayrılanlar üçün maraqlı kitab hazırlayıb. Kitab başdan-ayağa rəngli şəkillərdən ibarətdir. "Xoşbəxt ol, axmaq" adlı kitabda keçmiş sevgiliyə ünvanlanan müxtəlif söyüşlər yer alır. "Creative Collective" heyəti bəyan edib ki, bu kitab ayrılıq ağrısı çəkənlərin yükünü azaltmağa, keçmişdə yaşananları beyindən silməyə hesablanıb. Söyüş və aşağılayıcı sözlərlə paralel, kitabda insana ruh yüksəkliyi verən frazalar da yer alıb: "Mən daha yaxşısına layiqəm", "Anacanınla xoşbəxt yaşa".

Kitabın müəllifləri bildiriblər ki, onların hər biri belə bir ayrılıq ağrısı yaşayıblar. "Biz qərar verdik ki, insanlara öz keçmiş sevgililərinə deyə biləcəkləri sözlərin toplusunu hazırlayaq. Və onlar anlasınlar ki, tək deyillər, onların yaşadıqlarını yaşayanlar olub və olacaq".

Rəngli kitabı internetdə 8.5 dollara satın almaq olar.





## Dünyanın ən kök sərnişini narkotiki qarnında gizlətdi

ABŞ-ın Florida ştatının yol polisi əməkdaşları 200 kilo çəkisi olan sərnişinin qarın qatları arasında 23 qram marixuana aşkarlayıb. Lenta.ru saytının xəbərinə görə, yoxlamaya sürücünün təhlükəsizlik kəmərini bağlamaması səbəb olub. Yol polisləri ancaq yol hərəkəti qaydalarını pozan sürücünü cəzalandırmağı planlaşdırırmışlar. Amma söhbət zamanı polislər 42 yaşlı sərnişin Kristofer Mitçel və 38 yaşlı sürücü Keytian Robertsin özünü şübhəli şəkildə əsəbi apardığını müşahidə edib. Bunun ardınca polis iti qızğın şəkildə maşına tərəf hücum çəkəndə isə daha dəqiq yoxlama aparılıb və Mitçelin qarın qatlarında marixuana, Robertsin üstündə isə kokain aşkarlanıb. Maşında həmçinin corabın içində gizlədilmiş 7 min dollar və silah tapılıb. Hər iki kişi həbs edilib.




QOÇ - Məqsədlərinizi həyata keçirməkdə bəzi maneələrlə üzləşsəniz də, günün ümumi mənzərəsi istəyinizə uyğun tərzdə canlanacaq. Büdcənizdə artım da mümkündür, amma səhhətinizi qorumalısınız.

BUĞA - Perspektivlərinizi reallaşdırmaq istiqamətində tənbəllik edirsiniz. Belə ki, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Əzmkarlığınızı artırın.

ƏKİZLƏR - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Qazanmaq üçün çoxsaylı şanslarınız da mümkündür.

XƏRÇƏNG - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra qonaq getməyə dəyər.

ŞİR - Bu təqvimdə bəxtinizə fəaliyyət və yeni əlaqələr üçün ən uğurlu məqamlar düşəcək. Odur ki, mövcud potensialınızdan maksimum bəhrələnin. Müqəddəs yerləri ziyarət etmək yaxşı olardı.

QIZ - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin. Günün ikinci yarısında isə yalnız istirahət və gəzintilərə meyl edin.

TƏRƏZİ - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər o qədər də önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

ƏQRƏB - Başınızdakı yeni ideyaları reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Büdcənizi boş məsrəflərə xərcləməyin.

OXATAN - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 15-dən sonra iştirak etdiyiniz bütün görüşlər xeyrinizədir.

OĞLAQ - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

SUTÖKƏN - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Çünki ixtiyarınızda olan bu təqvim deyilən məsələlər üçün önəmli deyil. Gün ərzində dostlarınızla bir yerdə olun.

BALIQLAR - Şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Bu dəyişkən ərəfədə görəcəyiniz işləri reallığa yaxınlaşdırmaq üçün müttəfiqlərinizlə əlaqələri dərinləşdirməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyaya dərisi ləkəli gəldi, indi dünya gözəlidir



Matilda Kallaqhanın anası Rebekka doğuş zamanı yaşadığı problemlərə görə körpəsinin üzündə saysız-hesabsız qırmızı ləkələr olduğunu görüb. Onda üz hissəsini, yanaqlarını, göz ətrafını və alnını əhatə edən ləkələr olub. Mavi gözləri ilə bütün sevincini ətrafa yayan balaca qış uşağı internetdə paylaşılan şəkilləri ilə hər kəsin diqqətini çəkməyə nail olub. Kiçik yaşlarında lazer müalicəsi görən balaca qız qısa bir müddət sonra bütün doğum ləkələrindən qurtulub və indi "dünya gözəli"dir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100